**AZƏRBAYCAN RESPUBLİKASININ**
**DAXİLİ İŞLƏR NAZİRLİYİ**

# QƏRAR

**№ Q2-001-12**

Bakı şəhəri | 19 yanvar 2012-ci il

**«Yol-patrul xidməti haqqında**
**Təlimatın təsdiq edilməsi barədə»**

Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 30 iyun tarixli 518 nömrəli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi haqqında Əsasnamə»nin 4.1.9-cu yarımbəndinin icrasını təmin etmək məqsədilə

**QƏRARA ALIRAM:**

1. «Yol-patrul xidməti haqqında Təlimat» təsdiq edilsin (əlavə olunur).

2. Naxçıvan MR Daxili İşlər Naziri, Bakı şəhər BPİ-nin, şəhər-rayon polis orqanlarının rəisləri, DYP-nin nizami hissə komandirləri bu Təlimatın şəxsi heyət tərəfindən öyrənilməsini və xidməti fəaliyyətdə tətbiq edilməsini təmin etsinlər.

3. DİN Baş DYP İdarəsinin rəisi:

3.1. Təlimatda nəzərdə tutulmuş jurnal və blankların hazırlanmasını təmin etsin;

3.2. DYP-nin şəxsi heyətinə bu Təlimatın tələblərinin izah olunması məqsədilə metodiki seminarlar keçirilməsi və nəticəsi üzrə məqbullar qəbul edilməsini təşkil etsin.

4. DİN-in 02.02.2001-ci il tarixli 50 nömrəli əmri ləğv edilsin.

5. Bu Qərar Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün 3 gün müddətində Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim edilsin.

6. Qərar aidiyyatı üzrə elan olunsun.

**Nazir**
**general-polkovnik** | **Ramil Usubov**

# YOL-PATRUL XİDMƏTİ HAQQINDA TƏLİMAT

## 1. Ümumi müddəalar

1.1. Yol-patrul xidməti (bundan sonra «YPX» adlandırılacaq) Daxili İşlər Nazirliyi (bundan sonra «DİN» adlandırılacaq) Dövlət Yol Polisinin (bundan sonra «DYP» adlandırılacaq) tərkib hissəsi olaraq, yol hərəkəti təhlükəsizliyinə nəzarəti həyata keçirir.

1.2. Yollarda hərəkət təhlükəsizliyinin təmin edilməsinə nəzarət YPX əməkdaşları tərəfindən stasionar və digər postlarda, eləcə də xüsusi avadanlığı olan nəqliyyat vasitələrində və ya xüsusi texniki vasitələrin tətbiqi ilə həyata keçirilir.[1]

1.3. YPX öz fəaliyyətində «Polis haqqında» və «Yol hərəkəti haqqında» Azərbaycan Respublikası Qanunlarını, Azərbaycan Respublikasının digər qanunlarını, ölkə Prezidentinin aktlarını, Nazirlər Kabinetinin qərar və sərəncamlarını, DİN-in qərar, əmr və göstərişlərini, digər normativ aktların tələblərini, eləcə də bu Təlimatı rəhbər tutur.

1.4. YPX-nin əsas vəzifələri aşağıdakılardır:

1) yol hərəkətinə nəzarət etmək və yol hərəkəti təhlükəsizliyi qaydalarının pozulması hallarının qarşısını almaq;

2) yol hərəkətini tənzimləmək;

3) yol-nəqliyyat hadisələrinin baş verdiyi yerlərdə təxirəsalınmaz tədbirləri həyata keçirmək;

4) yol-nəqliyyat qəzaları yerində zərər çəkmiş şəxslərə ilk tibbi yardım göstərmək;

5) ictimai təhlükəsizliyin təmin edilməsində və cinayətkarlığa qarşı mübarizə tədbirlərində iştirak etmək;

6) xüsusi təyinatlı nəqliyyat vasitələrinin təhlükəsiz hərəkətini təmin etmək, bu cür nəqliyyat vasitələrini, habelə mütəşəkkil nəqliyyat dəstəsini müəyyən edilmiş qaydada müşayiət etmək;

7) yol hərəkəti iştirakçılarına onların hüquqlarının təmin olunmasında yardım etmək, avtomobil yollarında hərəkətin məhdudlaşdırılması və ya qadağan edilməsi səbəbləri barədə məlumat vermək;

8) ətraf mühitin mühafizəsi tədbirlərində iştirak etmək;

9) yol hərəkəti təhlükəsizliyi qaydalarını pozan şəxsləri qanunvericiliyə uyğun olaraq inzibati məsuliyyətə cəlb etmək;

10) inzibati məsuliyyətə cəlb olunmuş şəxslərin uçotunu aparmaq;

11) nəqliyyat vasitələrinin sürücüləri tərəfindən qeydiyyat qaydalarına əməl olunmasına nəzarət etmək;

12) yollarda nəqliyyat vasitələrinin texniki vəziyyətinə nəzarət etmək;

13) küçə-yol şəbəkəsinin texniki tənzimləmə vasitələrinin vəziyyətinə və onların saz halda saxlanılmasına, avtomobil yollarında və küçələrdə təmir-tikinti işlərinin aparılmasında müəyyən edilmiş qaydalara riayət olunmasına nəzarət etmək;

14) yol şəraiti hərəkət üçün ciddi təhlükə yaratdıqda, fövqəladə və digər hallarda yol hərəkətini müvafiq qaydada müvəqqəti məhdudlaşdırmaq və ya qadağan etmək;

15) qanunvericiliklə nəzərdə tutulan hallarda nəqliyyat vasitələrinin istismarını qadağan etmək;

16) küçə və yollarda hərəkətə maneçilik törətməklə dayanma və ya durma qaydalarını pozan nəqliyyat vasitələrini duracağa göndərmək;

17) nəqliyyat vasitələrindən kommersiya məqsədi ilə istifadə edildikdə lisenziya və ya yol (marşrut) vərəqələrinin olmasına nəzarət etmək.

1.5. YPX-nin fəaliyyəti qanunçuluq, insan hüquqlarına hörmət və aşkarlıq prinsipləri əsasında qurulur. YPX öz qarşısında duran vəzifələri polisin digər xidmətləri, hərbi yol müfəttişliyi, dövlət orqanları, idarə, təşkilat, müəssisə, qeyri-hökumət təşkilatları, əmək kollektivləri və vətəndaşlarla birgə qarşılıqlı fəaliyyət əsasında həyata keçirir.

1.6. YPX-nin əməkdaşları xüsusi peşə hazırlığı keçməli, xidməti vəzifələrini yerinə yetirərkən intizamlı və sayıq olmalı, cəsarət və qətiyyətlilik göstərməli, yüksək mənəvi keyfiyyətlərə malik olmalıdır.

1.7. DYP-nin YPX-nin tərkibinə alay, bölük, taqım (bundan sonra «nizami polis hissələri» adlandırılacaq) və ərazi DYP şöbə, bölmə və qruplarının (bundan sonra «DYP bölümləri» adlandırılacaq) naryadları daxildir.

## 2. Planlaşdırma, uçot və analiz

2.1. YPX-nin fəaliyyəti daxili işlər orqanlarında müəyyən olunmuş qaydada tərtib olunmuş nizami hissənin və DYP bölümünün iş planlarına müvafiq olaraq həyata keçirilir.

2.2. Planlaşdırma mövcud qüvvə və vasitələri nəzərə almaqla, xidməti ərazidə əməliyyat şəraitinin, qəzalılıq vəziyyətinin, ictimai asayişin qorunması, cinayətkarlıqla mübarizə, DYP orqanlarında nizam-intizam, qanunlara riayət olunmasının təhlili və proqnozlaşdırılması əsasında həyata keçirilir.

2.3. İş planlarına DİN-in və Baş Dövlət Yol Polisi İdarəsinin (bundan sonra «BDYPİ» adlandırılacaq) yol hərəkətinin təhlükəsizliyinin təmin edilməsi üzrə qərar, əmr və göstərişlərinin tələblərinin yerinə yetirilməsi ilə bağlı tədbirlər, eləcə də xidməti fəaliyyətin təkmilləşdirilməsi, onun effektivliyinin artırılması, korrupsiya, hüquq pozuntularının qarşısının alınması məsələləri daxil olmalıdır. İş planları yarımillik (baş idarə, idarə), rüblük (şöbə, alay, bölük) və aylıq (taqım, bölmə, qrup) tərtib edilir.[2]

2.4. Nizami polis hissələrinin iş planları yol polisi idarələrinin (şöbələrinin) rəisi tərəfindən təsdiq olunur. Planı təsdiq etmiş şəxsin razılığı ilə iş planlarına nizami polis hissəsinin komandiri və ya DYP bölümünün rəisləri tərəfindən dəyişiklik və əlavələr edilə bilər.

2.5. Plan dövrü sona çatdıqdan sonra planlaşdırılmış tədbirlərin yerinə yetirilməsi haqqında arayış tərtib edilir və planı təsdiq etmiş rəhbər şəxsə məruzə edilir. Planın hər hansı bəndinin yerinə yetirilmədiyi halda arayışda bunun səbəbi və zəruri olduqda isə onun yeni icra olunma müddəti göstərilir. Planların yerinə yetirilməsinin nəticələrinə əməliyyat müşavirələrində nizami hissənin komandirinin (DYP bölümlərinin rəislərinin) iştirakı ilə baxılır.

2.6. Planların yerinə yetirilməsinə nəzarəti nizami hissələrin komandirləri (qərargah rəisləri), eləcə də, DYP bölümlərinin rəisləri həyata keçirir.

2.7. Nizami polis hissələrində və DYP bölümlərində xidmətin qarşısında duran əsas vəzifələrin yerinə yetirilməsi üçün əhəmiyyətli olan məlumatların qeydiyyatı, uçotu və analizi aparılır. Yol hərəkəti sahəsində yol-nəqliyyat hadisələri, cinayətlər və inzibati hüquq pozuntuları və onları törədən şəxslər haqqında məlumatlar, onların qarşısının alınması üçün görülən tədbirlər, yol patrul xidməti əməkdaşları tərəfindən nizam-intizama və qanunçuluğa riayət olunmasının vəziyyəti haqqında məlumatlar, təşkilatlar, ictimai birliklər və vətəndaşların müraciətləri, eləcə də yol patrul xidmətinin yol hərəkətinin təhlükəsizliyinin təmin edilməsi üzrə fəaliyyətinə dair digər məlumatlar qeydiyyata alınmalı və təhlil edilməlidir.

2.8. Nizami hissənin komandiri, DYP bölümünün rəisi bilavasitə nizami hissədə və bölümdə uçot-qeydiyyat işini və məlumatların analizini təşkil edir və onun aparılmasının vəziyyətinə nəzarəti həyata keçirir.

2.9. Uçot-analiz işinin yerinə yetirilməsində operativliyin artırılması üçün nizami polis hissələri və DYP bölümləri kompüter texnikası ilə təchiz olunur.

## 3. Qüvvə və vasitələrin yerləşdirilməsi

3.1. YPX-nin fəaliyyəti qüvvə və vasitələrin mövcudluğundan, onların gərgin yol şəraiti ilə xarakterizə olunan yerlərdə cəmlənməsi prinsipindən asılı olaraq təşkil olunur. Bu zaman xidməti ərazidə qəzalılıq, cinayətkarlıq və hüquq pozuntuları ilə bağlı vəziyyət, avtomobil yollarının uzunluğu və bu yollarda hərəkət şəraitinin xüsusiyyətləri, sutkanın müxtəlif saatları, həftənin günləri və ilin müxtəlif fəsillərində nəqliyyat və piyadaların hərəkət intensivliyi nəzərə alınır.

3.2. YPX-nin fəaliyyətində aşağıdakılar təşkil olunur:

1) yol-patrul xidməti naryadı – patrul post və marşrutlarında xidmət aparmaq üçün təyin olunmuş yol polisi əməkdaşı və ya bir neçə əməkdaş;

2) patrul marşrutu – yol polisi əməkdaşlarının üzərinə qoyulmuş vəzifələrini yerinə yetirdikləri dislokasiya ilə müəyyən olunmuş avtomobil yolu hissəsi;

3) yol-patrul xidməti postu – yol polisi əməkdaşlarının onların üzərinə qoyulmuş vəzifələrini yerinə yetirdikləri dislokasiya ilə müəyyən olunmuş konkret yer;

4) stasionar yol-patrul xidməti postu – yol polisi naryadlarının xidmət apardığı əməliyyat-texniki və xüsusi vasitələr, mühəndis və digər qurğularla təchiz olunmuş xüsusi xidməti binalarla təmin edilmiş yer, eləcə də posta təhkim olunmuş xidməti ərazi.

3.3. YPX-nin qüvvə və vasitələrinin bölgüsü sutkalıq naryad təyininin orta normasına uyğun olaraq post və marşrutların dislokasiyasına müvafiq olaraq həyata keçirilir.

3.4. Naryadların təyin olunmasının orta norması nizami bölmə üçün bir illik, YPX-nin inspektor tərkibinin ştat sayının şəxsi heyətin 8 saatlıq növbə üçün 2.1 təşkil edən tələbat əmsalına bölünməsi yolu ilə müəyyən edilir. Növbə 8 saatdan artıq olduğu halda əmsal hər bir əlavə saat üçün 0,26 qədər artırılır (reyd tədbirlərinin keçirilməsi, fövqəladə hallar zamanı).

3.5. Post və marşrutların dislokasiyasına daxildir (Təlimata 1 saylı əlavə):

- muxtar respublika, ~~vilayət,~~ şəhər, rayon avtomobil yollarının sxemi;

- YPX əməkdaşlarının və patrul nəqliyyatının çıxarılmasının mütləq norması; patrul, o cümlədən əlavə, operativ vəziyyətin çətinləşdiyi dövrdə bağlanmalı olan post və marşrutların siyahısı;

- naryad növləri, onların qarşılıqlı hərəkət və əlaqə qaydası, xüsusi vəzifələr, eləcə də digər zəruri məlumatlar (daxili işlər orqanları və onların bölmələrinin, tibb müəssisələrinin, nəqliyyat vasitələrinə texniki xidmət stansiyalarının, təşkil olunmuş nəqliyyat dayanacaqlarının və digər servis obyektlərinin yeri və telefon nömrələri).

3.6. Dislokasiya operativ şərait və qəzalılıq vəziyyətinin təhlili əsasında, avtomobil yollarındakı şəraiti, nəqliyyat vasitələri və piyadaların axınının epizodik olaraq artmasını şərtləndirən müəssisələr, tədris müəssisələri, ticarət mərkəzləri, servis obyektlərinin iş rejimini nəzərə almaqla işlənib hazırlanır.

3.7. Dislokasiyada patrul post və marşrutlarının sayı onların naryadlarının sutkalıq mütləq çıxarılma normalarına əsasən hesablanmış sayından artıq ola bilməz. Qüvvə və vasitələrlə manevr edilməsi haqqında qərar nizami polis hissəsinin komandiri, DYP bölümünün rəisi tərəfindən qəbul edilir və post cədvəlləri kitabında (Təlimata 4 saylı əlavə) qeydə alınır. [3]

3.8. Post və marşrutların dislokasiyası nizami polis hissələrinin komandiri, DYP bölümlərinin rəisi tərəfindən 1-3 il müddətinə hazırlanaraq nizami polis hissəsinin və yaxud DYP bölümünün daxil olduğu daxili işlər orqanının rəhbəri ilə razılaşdırılaraq təsdiq edilməsi üçün müvafiq olaraq DİN-in, Baş Polis İdarəsinin və polis idarə və şöbələrinin rəislərinə təqdim edilir.

3.9. Nizami hissənin xidmət apardığı yollar bir neçə şəhər-rayon ərazisindən keçdikdə dislokasiyadan çıxarışlar həmin şəhər və rayonun polis orqanına göndərilir.

3.10. Hər bir patrul postu, marşrutu üçün iki nüsxədə post (patrul marşrutu) vərəqi tərtib olunur (Təlimata 2 saylı əlavə). Vərəqin bir nüsxəsi nizami hissənin növbətçi hissəsində saxlanılır, ikincisi isə xidmət apardığı vaxtda YPX inspektoruna təqdim edilir.

3.11. Nizami hissənin və DYP bölümünün iş rejimi gündəlik cədvəl və hər bir yol polisi əməkdaşının xidmət aparma gün və saatlarının (növbəsinin), eləcə də onun istirahət günlərinin göstərildiyi qrafiklə müəyyən olunur. Gündəlik cədvəl və iş qrafiki nizami bölmə komandiri, DYP bölümünün rəisi tərəfindən təsdiq edilir (Təlimata 3 saylı əlavə).

3.12. Növbədə xidmət müddətini nizami hissə komandiri (DYP bölümünün rəisi) «Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında» Əsasnaməyə müvafiq olaraq müəyyən edir. Hərəkətin təhlükəsizliyinin təmin olunması ilə bağlı əlavə xidmətin aparılması zərurəti yarandıqda nizami polis hissəsinin komandiri (DYP bölümünün rəisi) öz əmri ilə yol polisi əməkdaşlarının iş vaxtının müddətini uzada bilər.

3.13. YPX aşağıdakılar ilə təmin olunur:

1) xidməti-əməliyyat nəqliyyat vasitələri ilə (patrul, əməliyyat, təxliyyə, qəza yerinə çıxış avtomobilləri və patrul motosikletləri və digər);

2) xidməti-əməliyyat vertolyotları (helikopter);

3) xüsusi-texniki vasitələri ilə (nəqliyyatın axınına nəzarət, yol hərəkəti qaydalarını (bundan sonra «YHQ» adlandırılacaq) pozma hallarını qeydə alan, yol-nəqliyyat hadisələri (bundan sonra «YNH» adlandırılacaq) yerinə baxış, sərxoşluq vəziyyətini, nəqliyyat vasitələrinin tullantılarında çirkləndirici maddələrin miqdarını, avtomobillərin şüşələrinin işıqburaxma qabiliyyətini müəyyən edən cihazlar və digər);

4) müəyyən edilmiş qaydada odlu silah, xüsusi əməliyyat, rabitə və texniki vasitələrlə;

5) informasiya kommunikasiya texnologiyalarından istifadə etmək üçün müvafiq vasitələrlə.

## 4. Yol hərəkətinə nəzarətin forma və metodları

4.1. YPX-nin aparılmasının əsas formaları aşağıdakılardır:

1) avtomobil və motosikletdə xidmət aparma;

2) piyada xidmət aparma;

3) postlarda, o cümlədən stasionar postlarda xidmət aparma;

4) vertolyotla xidmət aparma.

4.2. Patrul və əməliyyat-xidməti nəqliyyat vasitələri ilə aparılan nəzarət aşkar, gizli və qarışıq olmaqla üç növə bölünür:

1) hərəkətə aşkar nəzarət - YPX inspektorunun müəyyən olunmuş geyim formasında olmaqla, dövlət standartına uyğun rəng qrafikasına malik avtomobildə və ya motosikletdə xidmət aparmaqla, hərəkət iştirakçılarına yaxşı görünən yerdə durmasıdır. Xidmətin aparılmasının bu növü YPX-nın əsas funksiyası olaraq preventiv xarakter daşımaqla yol hərəkəti iştirakçılarını hüquqazidd hərəkətlər etməkdən çəkindirir.

2) gizli nəzarət - xüsusi rəng qrafikası olmayan xidməti-əməliyyat və digər nəqliyyat vasitələrində mülki geyimdə və ya xidməti geyim formasında olan YPX inspektorları tərəfindən, əsasən sutkanın işıqlı vaxtında aparılır. Bu zaman aşkar olunan qayda pozuntuları barədə YPX inspektoru raport (Təlimata 14 saylı əlavə) tərtib edir ki, bu da nəqliyyat vasitəsinin dövlət qeydiyyatı üzrə uçota alındığı ərazinin DYP orqanına göndərilir;

3) qarışıq nəzarət - xüsusi rəng qrafikası olan və olmayan (iki) patrul və əməliyyat-xidməti nəqliyyat vasitəsindən istifadə olunmaqla polis geyim formasında olan və olmayan YPX inspektorları tərəfindən həyata keçirilir. Hər iki nəqliyyat vasitəsinin heyətləri bir-birilə radio-cihaz vasitəsi ilə əlaqə saxlayaraq aşkar etdikləri qayda pozuntuları barədə məlumat verir və müvafiq tədbir görürlər.

4.3. Ümumi istifadədə olan nəqliyyat vasitələrinin sürücüləri tərəfindən yol hərəkəti qaydalarına riayət olunmasına gizli nəzarət formalarından biri YPX inspektorunun mülki geyimdə nəqliyyat vasitəsinin salonunda son dayanacağa qədər gedib, hərəkət yolunda sürücü tərəfindən yol verilən pozuntuların qeydə alınmasıdır. Zəruri olduqda, marşrutun sonunda və ya şəhərkənarı yollarda stasionar YPX postunda inspektor tərəfindən inzibati xəta haqqında protokol tərtib olunur.

4.4. Gizli nəzarətin həyata keçirilməsi haqqında qərarı nizami hissənin komandiri, yol polis idarəsinin (şöbəsinin) rəisi və ya onu əvəz edən şəxslə razılaşdırmaqla qəbul edir.

4.5. Yol hərəkətinə bütün nəzarət hallarında xüsusi rəng qrafikalı patrul avtomobili və YPX inspektoru yol hərəkəti iştirakçıları üçün kifayət edəcək məsafədən görünən olmalıdır. YPX avtomobillərinin görüntünü məhdudlaşdıran hər hansı bir maneələrin (ağaclar, bina və qurğular, reklam lövhələri və s.) arxasında, o cümlədən «Yol hərəkəti haqqında» Azərbaycan Respublikasının Qanunu ilə dayanma və ya durmanın qadağan edildiyi yerlərdə yerləşdirilməsi qadağandır, eyni tələb piyada naryadlarına da aiddir.

4.6. Xüsusi rəngləmə sxemi, xüsusi səs və qırmızı və ya göy sayrışan işıq siqnalı ilə təchiz edilmiş patrul avtomobili və motosikletlərindən istifadə etməklə YPX aparılan zaman aşağıdakı əsas metodlar tətbiq edilir:

1) nəqliyyat vasitələri axınında hərəkət – YHQ pozuntularının qarşısının alınması və aşkar olunması məqsədilə sürücülərin davranışına nəzarət etmək üçün, o cümlədən sutkanın qaranlıq vaxtında şəhərkənarı yollarda ~~mütəmadi olaraq~~ qırmızı və ya göy sayrışan işıq siqnalından istifadə etməklə;[4]

2) müəyyən olunmuş sürət həddinin artırılmasının qarşısının alınması məqsədilə nəqliyyat axınının önündə hərəkət etməklə;

3) qəza baxımından təhlükəli yerlərdə dayanma – təhlükənin aradan qaldırılması, eləcə də sürücü və piyadalar tərəfindən yol hərəkəti qaydalarının pozulmasının qarşısının alınması üçün, o cümlədən sutkanın qaranlıq vaxtında isə qırmızı və ya göy sayrışan işıq siqnalından istifadə etməklə;

4) bütün hərəkət iştirakçıları üçün yaxşı görünən yerlərdə patrul avtomobilinin və ya motosikletinin saxlanması və eyni zamanda YPX inspektorunun hərəkət intensivliyinin yüksək olduğu sahələrdə piyada hərəkət etməsi.

4.7. Bu və ya digər metodun tətbiqi, onların növbələşməsi və hərəkət sürətinin seçimi təlimatda qoyulmuş vəzifə və patrul marşrutunda yaranan şəraitə uyğun müəyyən edilir.

4.8. Patrul avtomobili radio-cihaz vasitəsi, qırmızı və ya göy sayırışan işıq və xüsusi səs siqnalı, kompüter, video kamera, dərman qutusu, 2 ədəd yol nişanı, fənər, yanğın söndürən vasitə, hadisə yerini bildirən işıq əks etdirən lent və digər texniki vasitələrlə təchiz olunur.

Qeyd: Patrul avtomobilində xidmət aparan YPX inspektoru tərəfindən nəqliyyat vasitəsi saxlanılarkən patrul avtomobilində quraşdırılmış video kamera daim işlək vəziyyətdə olmalı, məsafədən səs ötürən mikrofondan istifadə edilməlidir. Sürücü ilə ünsiyyət və inzibati xətanın sənədləşdirilməsi, habelə YPX inspektorunun digər hərəkətləri avtomobilin içəri hissəsində və ya kənarda kameranın görünüş dairəsində aparılmalıdır.

4.9. Piyada xidmət aparma uzunluğuna görə 1500 metrdən artıq olmayan, hərəkət intensivliyinə görə gərgin və qəza baxımından təhlükəli yol hissələrində hərəkətə nəzarət etmək üçün tətbiq edilir. Patrul nəqliyyatı vasitələri ilə xidməti ərazinin uzunluğu şəhər daxilində 2-8 km, respublika əhəmiyyətli avtomobil yollarında 30-35

km (~~müstəsna hallarda~~ hərəkət intensivliyi və qəzalılıq vəziyyəti nəzərə alınmaqla bu ərazi qısaldılır) qəbul edilir, digər yollarda buna məhdudiyyət qoyulmur.[5]

4.10. Piyada xidmət aparma zamanı yol hərəkətinə nəzarət səkinin kənarı (yolun kənarı), yolun ehtiyat hissəsi ilə hərəkət etməklə həyata keçirilir. Xidmətin aparılma yeri elə seçilməlidir ki, YPX inspektoru mümkün qədər çox sayda yol hərəkəti iştirakçısı üçün aydın görünsün və hüquq pozuntularının qarşısını vaxtında almaq imkanına malik olsun. Piyada xidmət aparan YPX inspektoruna inzibati xəta haqqında protokolun tərtib olunduğu və müəyyən olunmuş qısamüddətli istirahət vaxtı istisna olmaqla avtomobildə oturmaq qadağan olunur.

4.11. Stasionar postlar əsasən respublika əhəmiyyətli avtomobil yollarında, paytaxtın giriş və çıxışlarında BDYPİ-nin təklifi əsasında DİN rəhbərliyinin göstərişinə əsasən təşkil olunur.

4.12. Stasionar postlar mebel, rabitə vasitələri, qəza-xilasedici avadanlıqları, ilkin tibbi yardım ləvazimatları, səsgücləndirici, videomanitor və kompüterlər, nəqliyyat vasitəsinin məcburi saxlanılması üçün texniki vasitələr, qaz analizator, alkotestr, sürətölçən cihazlar və digər avadanlıqlarla təchiz olunur.

4.13. «Stasionar postda Silah, əməliyyat-texniki və xüsusi vasitələrin təhvil verilib alınması jurnalı» «(Təlimata 6 saylı əlavə)», «Postun təhvil-təslim jurnalı» (Təlimata 7 saylı əlavə), «Daxil olmuş göstərişlərin uçotu jurnalı» (Təlimata 8 saylı əlavə), «Axtarışı elan edilmiş nəqliyyat vasitələrinin uçotu jurnalı» (Təlimata 9 saylı əlavə), «Nəqliyyat vasitəsinin saxlanca qəbul edilmə jurnalı» (Təlimata 10 saylı əlavə), «Sürətölçənin göstəricilərinin uçotu kitabı» (Təlimata 11 saylı əlavə), «Yol şəraiti, texniki tənzimləmə vasitələri və yol nişanlarının vəziyyətində müəyyən edilən çatışmamazlıqların uçotu jurnalı» (Təlimata 12 saylı əlavə) ilə təmin olunur.[6]

Qeyd: Jurnallar dolduqdan sonra 2 il müddətində saxlanılır.

4.14. Nəqliyyat vasitələrinin yoxlanmasının rahatlığı, habelə yol hərəkəti təhlükəsizliyinin təmin olunması məqsədilə posta bitişik ərazi sutkanın qaranlıq vaxtı yaxşı işıqlandırılır.

4.15. Helikopterlə patrul əsasən yüksək hərəkət intensivliyi olan respublika əhəmiyyətli yollarda təşkil olunur. Vertolyotla xidmət aparma vertolyotla birlikdə iki və daha çox patrul avtomobilindən istifadə etmək yolu ilə həyata keçirilir. Bunun üçün helikopter naryadının tərkibinə 1 nəfər baş YPX inspektoru təyin olunur. Onun tərəfindən aşkar edilmiş YHQ pozuntusu barədə patrul avtomobillərində xidmət aparan YPX inspektoruna radio-cihaz vasitəsilə məlumat verilir.

4.16. Helikopter vasitəsilə yol hərəkətinə nəzarət, mütəşəkkil nəqliyyat dəstəsinin müşayiəti, böyük sayda nəqliyyat vasitələrinin və insanların iştirakı ilə kütləvi tədbirlərin keçirilməsi, YNH yerindən yayınan sürücülərin, qaçırılmış və ya oğurlanmış nəqliyyat vasitələrinin axtarışı həyata keçirilir.

4.17. YPX-nin aparılmasının əsas üsulları yol hərəkəti iştirakçılarının davranışına nəzarət, onların hüquqazidd hərəkətlər etməkdən çəkindirilməsi, hüquq pozuntularının qarşısının alınması, sərəncamverici-tənzimləyici hərəkətlərin həyata keçirilməsidir.

4.18. Yol hərəkəti iştirakçılarının davranışına nəzarət - yol hərəkəti iştirakçıları tərəfindən yol hərəkəti qaydalarının və yol hərəkəti sahəsində qüvvədə olan digər

normaların tələblərinə riayət olunmasına vizual və ya xüsusi texniki vasitələrin köməyi ilə müşahidədən ibarətdir.

4.19. Sərəncamverici-tənzimləyici hərəkətlərə - hərəkətdə müvəqqəti dayanmaların, ləngimələrin baş verdiyi yerlərdə, kütləvi tədbirlərin keçirilməsi zamanı, işıqforda nasazlıqlar yarandıqda, piyadaların yolu keçməsinin təmin edilməsi və yol şəraitinin çətinləşdiyi digər hallarda YPX inspektoru tərəfindən həyata keçirilən jestlərlə tənzimləmə hərəkətləri aiddir (Təlimata 13 saylı əlavə).

4.20. Yol hərəkəti iştirakçılarının hüquqazidd hərəkətlərdən çəkindirilməsi - onların davranışına bilavasitə marşrutun ən gərgin hissəsində, hadisə və ya təbii fəlakət yerində YPX inspektorunun olması ilə təsir göstərilməsi, eləcə də sürücülərin yol hərəkəti qaydalarına əməl edilməməsi nəticəsində baş verə biləcək mümkün hadisələr haqqında xəbərdar olunmasıdır.

4.21. YHQ pozuntusunun qarşısının alınması - hadisələrin qarşısının alınması və onların mümkün nəticələrinin xəbərdar edilməsi məqsədilə yol hərəkəti iştirakçılarının qanunazidd hərəkətlərinə mütləq qaydada YPX inspektorlarının reaksiya göstərməsindən, qaydaları pozan şəxslərin qanunvericiliklə müəyyən olunmuş qaydada məsuliyyətə cəlb olunmasından ibarətdir.

4.22. Yol hərəkəti təhlükəsizliyinin təmin olunması işinə kömək məqsədi ilə daxili işlər orqanlarından (bundan sonra «DİO» adlandırılacaq) təxris olunmuş, eləcə də bu sahədə müvafiq təcrübəsi olan şəxslər cəlb oluna bilər.

## 5. Xüsusi texniki vasitələrdən və evakuatordan istifadə qaydası

5.1. Nəqliyyat vasitələrinin hərəkət sürətinin müəyyən olunması üçün nəzarət ölçü cihazları, YHQ pozuntularını qeydə alan digər texniki vasitələr, nəqliyyat vasitələrinin məcburi saxlanması üçün qurğular, sürücülük vəsiqələrində, nəqliyyat vasitələrinin qeydiyyat şəhadətnamələrində saxtalaşdırmaların aşkarlanması üçün cihazlar, avtomobilin şüşələrinin işıqburaxma qabiliyyətini, nəqliyyat vasitələrinin tullantılarında çirkləndirici maddələrin miqdarını ölçən qurğular və digər texniki vasitələr onlardan istifadə qaydaları haqqında təlimata uyğun olaraq tətbiq edilir. Metroloji yoxlamadan keçməmiş və ya yoxlama şəhadətnamələrinin vaxtı keçmiş nəzarət ölçü cihazlarının tətbiqi qadağandır.

5.2. Nəqliyyat vasitələrinin hərəkət sürətini ölçərək qeyd edən radarlar müəyyən sahələrdə qəzalılıq vəziyyəti və sürücülərin intizamına təsirinin nəticələri, nəqliyyat axını intensivliyinin təhlili və onların effektiv istismar olunması nəzərə alınaraq tətbiq edilir və bu barədə də post kitabında (cədvəlində) müvafiq qeyd aparılır.

5.2-1. Yollarda nəqliyyat vasitələrinin hərəkət sürətinin ölçülməsi üçün nəzərdə tutulan mobil və ya stasionar xüsusi texniki vasitələrdən (radarlardan) qabaqda radarın mövcudluğu barədə məlumat vermək məqsədilə 6.14 «İnformasiya stendi» servis nişanı və əlavə məlumat nişanı, yaxud həmin yolda icazə verilən sürət həddini göstərən 3.24 «Maksimum sürətin məhdudlaşdırılması" nişanı quraşdırılmalıdır. Belə servis nişanı və ya 3.24 nişanı yaşayış məntəqələrindən kənarda müvafiq radardan 150-1000 metr qabaqda, yaşayış məntəqələrində isə 50-200 metr qabaqda quraşdırılır.[7]

5.3. Radarlar, yüksək hərəkət sürətli, həmçinin az hərəkət intensivliyi olan avtomobil yollarında aşağıdakı qaydada tətbiq olunur:

1) avtomatik işləyən sürət ölçən cihaz (radar) yeri dəyişilməklə xidmət ərazisində tətbiq edilir və onun göstəriciləri xidmətin sonunda çıxarılaraq müvafiq qaydada sənədləşdirilir;

2) YPX inspektoru tərəfindən cihazla məsafədən ölçülən hərəkət sürəti barədə görüntü nəqliyyat vasitəsinin sürücüsünə göstərilməli (törədilən xəta avtomatik rejimdə işləyən foto və ya video qeydiyyat funksiyalarına malik xüsusi texniki vasitələrin köməyi ilə aşkar edildikdə istisna olmaqla); o, narazı olduqda inspektor cihazın təyinatı barədə məlumat verməlidir;[8]

~~3) nəqliyyat vasitəsini idarə edən şəxs müəyyən edilmiş hərəkət surətinin həddini saatda 10 kilometrdən çox aşdıqda, sürətölçənin göstəricisi və pozuntunun baş verdiyi tarix barədə ölçmə cihazının göstəricilərinin uçotu kitabında müvafiq qeyd aparır (əgər sürücü müəyyən edilmiş hərəkət sürətinin həddini saatda 10 kilometrdən çox aşaraq, YPX inspektorunun nəqliyyat vasitəsini dayandırmaq barədə tələbini yerinə yetirməkdən boyun qaçırıbsa, onu məsuliyyətə cəlb etmək üçün pozuntunun yeri və tarixi, sürətölçənin göstəricisi, nəqliyyat vasitəsinin markası, rəngi və qeydiyyat nişanı göstərilməklə, bu barədə tərtib olunmuş raport nəqliyyat vasitəsinin dövlət qeydiyyatı üzrə daimi uçota alındığı yerə göndərilir).~~

4) hər bir aşkar olunmuş YHQ pozuntusu qeydə alınmalıdır.

5.3-1. İnzibati Xətalar Məcəlləsinin 151.2, 151.3-1, 151.3-2, 151-1.2, 151-1.3, 151-1.4 və 158-1.3-cü maddələrində nəzərdə tutulmuş xətalar avtomatik rejimdə işləyən foto və ya video qeydiyyat funksiyalarına malik xüsusi texniki vasitələrin köməyi ilə aşkar edildikdə, inzibati xəta haqqında protokol həmin xətanı törətmiş şəxsin iştirakı olmadan «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada elektron sənəd formasında xətanın törədildiyi gün tərtib edilir və elektron imza ilə təsdiqlənir. [9]

5.3-2. Sürücünün əvvəllər törətdiyi və avtomatik rejimdə işləyən foto və ya video qeydiyyat funksiyalarına malik xüsusi texniki vasitələrin köməyi ilə aşkar edilmiş inzibati xətalara görə nəqliyyat vasitəsini dayandıraraq törədilmiş belə xətalara dərhal yerində baxılmasını tələb etmək qadağandır. [10]

5.4. Xüsusi texniki vasitələrlə işə onların istismar təlimatlarını öyrənmiş və onların tətbiqi qaydalarına dair məqbullar vermiş YPX inspektor heyəti buraxılır. Xüsusi texniki vasitələri istifadə üçün almış YPX inspektoru onların işlək olmasına görə fərdi məsuliyyət daşıyır.

5.5. Hər bir nəzarət ölçü cihazı üçün «Sürətölçənin göstəricilərinin uçotu kitabı» açılır (Təlimata 11 saylı əlavə) ki, bu da növbənin sonunda yol hərəkətinə nəzarət zamanı aşkar edilmiş YHQ pozuntuları barədə məlumat cihazı tətbiq etmiş YPX inspektoru tərəfindən qeyd edilir.[11]

5.6. Rabitə vasitələri (radio-rabitə, radio-cihaz, telefon) naryadların idarə olunması və onlar arasında qarşılıqlı əlaqənin təmin edilməsi üçün tətbiq edilir.

5.7. İnformasiyanın rabitə kanalları ilə ötürülməsi, rabitə sisteminin təşkili və fəaliyyəti DİN tərəfindən müəyyən olunmuş qaydada həyata keçirilir. Xidməti

vəzifələrin yerinə yetirilməsi ilə bağlı olmayan məsələlər üzrə radio-cihaz vasitəsilə danışıqların aparılması qadağandır.

5.8. YPX inspektoru «Yol hərəkəti haqqında» AR Qanununun 52-ci maddəsinin dördüncü və altıncı hissələrində nəzərdə tutulmuş hallarda nəqliyyat vasitəsini müəyyən edilmiş qaydada təxliyyə avtomobili vasitəsi ilə müvəqqəti olaraq saxlanılması üçün Daxili işlər orqanlarının və ya nizami polis hissəsinin mühafizə olunan duracağına göndərir.

5.9. Bu Təlimatın 7.20 bəndində göstərilən hallar, habelə nəqliyyat vasitəsinin qanunvericilikdə müəyyən edilmiş dayanma və ya durma qaydalarının pozulduğu hallarda YPX inspektoru tərəfindən evakuator (təxliyyə avtomobili) nəqliyyat vasitəsinin saxlanılması üçün duracağa aparılması məqsədilə aşağıdakı qaydada tətbiq edilir:

1) YPX inspektoru radio-cihaz vasitəsilə qayda pozuntusu barədə növbətçi hissəyə məlumat verir və həmin yerə evakuator çağırır;

2) YPX inspektoru nəqliyyat vasitəsinin duracağa göndəriş vərəqəsini (Təlimata 15 saylı əlavə) doldurur (avtomobilin banında görünən zədələr və nəqliyyat vasitəsinin sahibinin məlumatlandırılması üçün görülmüş tədbirlər barədə göndəriş vərəqəsində qeydlər etməklə) və evakuatorun heyətinə təqdim edir;

3) YPX inspektoru bütün imkanlardan istifadə edərək bu haqda nəqliyyat vasitəsinin sahibinin məlumatlandırılması üçün tədbirlər görür;

4) göndəriş vərəqəsinin əsasında evakuatorun heyəti nəqliyyat vasitəsini duracağa aparır;

5) duracağa gətirilmiş nəqliyyat vasitəsi onun qulluqçularına aktla («Yol hərəkəti qaydaları və yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi qaydaları əleyhinə olan inzibati xətalar haqqında işlər üzrə icraatın təşkilinə dair» Təlimata 8 saylı əlavə) təhvil verilir;

6) duracağın qulluqçuları nəqliyyat vasitəsini DYP orqanının aktda edilmiş qeydi əsasında, onun duracağa gətirilməsi, və orada saxlanılması haqqı nəqliyyat vasitəsinin sahibi tərəfindən ödənildikdən və pozuntuya görə inzibati tənbeh tətbiq edildikdən dərhal sonra nəqliyyat vasitəsi duracaqdan buraxılır.

5.10. Bu təlimatın 5.8-ci bəndində nəzərdə tutulmuş hallarda nəqliyyat vasitəsinin evakuatora yüklənməsi əməliyyatı başlandıqda, habelə nəqliyyat vasitəsi yükləndikdən sonra nəqliyyat vasitəsinin sürücüsü həmin yerə yaxınlaşdıqda və nəqliyyat vasitəsinin qadağan olunmuş yerdən kənarlaşdıra bildikdə nəqliyyat vasitəsinin duracağa göndərilməsinə yol verilmir.

5.11. Nəqliyyat vasitəsi dayanma və durma qaydalarının pozulduğuna görə mühafizə olunan duracağa gətirilibsə, sürücü inzibati cəriməni və nəqliyyat vasitəsinin duracağa gətirilməsi və onun orada saxlanılması üçün haqqı həmin yerdə ödəyə bilər. Bu halda sürücüyə YPX inspektoru tərəfindən müəyyən edilmiş nümunədə qəbz verilir və saxlanılmış nəqliyyat vasitəsi dərhal sahibinə qaytarılır. Sürücü inzibati cəriməni nəqliyyat vasitəsinin gətirildiyi yerdə ödəməkdən imtina etdikdə inzibati xəta haqqında iş üzrə icraat İnzibati Xətalar Məcəlləsi ilə nəzərdə tutulmuş qaydada həyata keçirilir.

5.12. Evakuator yol-nəqliyyat hadisəsi nəticəsində sıradan çıxmış nəqliyyat vasitələrinin aparılması, habelə xüsusi tədbirlərin keçirildiyi ərazilərdə sahibsiz

nəqliyyat vasitələrinin yolun hərəkət hissəsindən kənarlaşdırılması məqsədilə də istifadə olunur.

5.13. «Yol hərəkəti haqqında» Azərbaycan Respublikası Qanununda nəzərdə tutulmuş hallarda yol hərəkətindən kənarlaşdırılmış nəqliyyat vasitəsinin sürücüsü onun avtomobilinin YPX inspektoru tərəfindən idarə olunaraq duracağa aparılmasına etiraz etdikdə onun tərəfindən təxliyyə haqqı ödənilməklə avtomobil evakuator vasitəsi ilə duracağa aparılır. ~~(Bu məqsədlə həmin yerə evakuator çağırılır. Nəqliyyat vasitəsinin sahibi ilə evakuator sürücüsü arasında təxliyə haqqının ödənilməsi ilə bağlı razılıq əldə edilərək nəqliyyat vasitəsi duracağa evakuasiya olunur.)~~ Nəqliyyat vasitəsinin saxlanılması səbəbi aradan qaldırıldığı barədə lazımi sənədlər təqdim edildikdən və ya pozuntuya görə inzibati tənbeh verildikdən, nəqliyyat vasitəsinin duracağa gətirilməsi və onun orada saxlanılması üçün haqq ödənildikdən dərhal sonra, saxlanılmış nəqliyyat vasitəsi sahibinə qaytarılır. Belə nəqliyyat vasitələrinin duracaqdan buraxılması üçün xüsusi icazə tələb olunmur. Nəqliyyat vasitəsi qanunsuz saxlanılmışdırsa və ya lazımi qaydada saxlanılmaması nəticəsində maddi zərər vurulmuşdursa, onun sahibi Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada məhkəməyə müraciət edə bilər. [12]

5.14. YPX inspektoru tərəfindən xüsusi vasitələr, «Polis haqqında» Azərbaycan Respublikası Qanununun 26-cı maddəsinə müvafiq olaraq tətbiq edilir.

5.15. Sürücü öz hərəkətləri ilə insan həyatına və sağlamlığına real təhlükə yaratdıqda, nəqliyyat vasitəsini dayandırmaq barədə YPX inspektorunun tələbinə tabe olmadıqda və onun saxlanılmasına başqa imkan olmadıqda məcburi dayandırma vasitələrindən istifadə (kirpi, stasionar postlarda yerdən çıxan avtomatik idarə olunan çəpər) olunmasına icazə verilir.

5.16. YPX inspektoru alkotesteri onun istismarı üzrə təlimata müvafiq olaraq aşağıdakı qaydada tətbiq edir:

1) nəqliyyat vasitəsinin sürücüsünün alkoqoldan istifadə edilməsi nəticəsində sərxoşluq vəziyyətini müəyyənləşdirmək məqsədilə nəfəs verilməklə yoxlanılır;

2) müayinənin nəticəsi YPX inspektoru tərəfindən müayinə olunan şəxsə bildirilir;

3) müayinə olunan şəxs sərxoş halda olmasını etiraf edərək alkotesterin nəticəsi ilə razı qaldıqda bu hal qanunvericiliklə müəyyən edilmiş qaydada 2 nəfər hal şahidinin iştirakı ilə sənədləşdirilir;

4) şəxs alkotesterin göstəricisi ilə razılaşmadıqda şahidlərin iştirakı ilə protokol tərtib olunaraq təkrar tibbi müayinə olunması üçün səhiyyə müəssisəsinə aparılır (Təlimata 16 saylı əlavə).

## 6. YPX-nin təşkili və aparılması

6.1. YPX-nin aparılması üçün naryada təyin edilmiş əməkdaşların hazırlanması, təlimatlandırılması və yerləşdirilməsi Azərbaycan Respublikası DİN-in 212 nömrəli, 30.05.2011-ci il tarixli əmri ilə təsdiq edilmiş «Polisin post-patrul xidmətinin Nizamnaməsi» və bu Təlimata müvafiq olaraq həyata keçirilir. Naryadların təlimatlandırılması xüsusi təchiz olunmuş sinifdə və ya tikiliyə bitişik meydançada aparılır.

6.2. YPX-nin aparılması üçün naryada təyin edilmiş şəxslər təlimatlandırmanın başlanmasından ən azı 15 dəqiqə əvvəl təlimatın keçirildiyi yerə və ya daxili işlər orqanlarına gəlməli və bu barədə növbətçiyə və bilavasitə komandirinə məruzə etməlidirlər.

6.3. Təlimatlandırma nizami polis hissəsinin komandiri və ya onun müavinləri və ya nizami polis hissəsinin qərargah rəisi və DYP bölümlərinin rəisləri tərəfindən aparılır.

6.4. Xidməti gecə aparan naryadın təlimatlandırılmasını nizami hissə komandiri və ya onun müavini, baş YPX inspektoru baş növbətçi-müfəttişin (növbətçi-müfəttişin) iştirakı ilə həyata keçirir ki, bu barədə də post cədvəlləri kitabında (Təlimata 4 saylı əlavə) qeyd aparılır. Təlimatlandırma müddəti 30 dəqiqədən artıq olmamalıdır.

6.5. Təlimatlandırmanın keçirilməsi zamanı vəzifəli şəxslər:

1) YPX inspektor heyətinin xidmət aparmağa hazır olduğuna əmin olmalı və aşkarlanmış çatışmazlıqların aradan qaldırılması üçün tədbirlər görməlidir;

2) YPX inspektorunun öz hüquq və vəzifələrini, silahın, xüsusi vasitələrin tətbiqi və istifadəsi qaydalarını, şəxsi təhlükəsizliyin təmin edilməsi tədbirlərini bilməsini seçmə üsulu ilə yoxlamalıdır;

3) YPX inspektorlarını xidmət aparılan ərazidə qəzalılıq vəziyyəti və əməliyyat şəraiti barədə yuxarı orqanların göstərişləri haqqında məlumatlandırmalıdır;

4) patrul post və marşrutlarını elan etməlidir;

5) ötən sutka ərzində işin nəticələri, qanunazidd hərəkətlərə yol verilməsi halları və xidmət aparılması qaydasını yol polisinin inspektor heyətinin diqqətinə çatdırmalıdır;

6) naryadların rəhbərlərini təyin etməlidir;

7) şəxsi heyətin təlimatlandırılmasının mütləq şərti vətəndaşlara diqqətli, ədəbli və nəzakətli münasibət, onların hüquq və azadlıqlarının müdafiəsi, hərəkətə nəzarət həyata keçirərkən zəruri yardımın göstərilməsi, şəxsi təhlükəsizlik tədbirlərinə riayət olunması haqqında məlumatların şəxsi heyətin diqqətinə çatdırılmasıdır.

8) xidməti post və patrul marşurutlarından çıxarılaraq dövlət əhəmiyyətli tədbirlərə əməkdaşların cəlb olunmaları barədə post cədvəlləri kitabına (Təlimata 4 saylı əlavə) qeydlər aparılmalıdır.

6.6. Xidmətə gedən YPX inspektorları səliqəli görünüşə, saz vəziyyətdə olan ləvazimat, mövsümə görə xidməti geyim, işığı əks etdirən təchizata, eləcə də döş nişanı, tabel silahı, jezl və digər xüsusi vasitələrə, post və ya patrul marşrutu vərəqi, xidməti kitabça (Təlimata 5 saylı əlavə), xidməti və sürücülük vəsiqəsinə, «Yol hərəkəti haqqında» AR Qanunu, İnzibati Xətalar Məcəlləsindən çıxarış, protokol blankları, inzibati cərimənin ödənilməsi üçün cərimə bildiriş blankları və digər zəruri prosessual sənədlərə, avtoqələm, karandaş, xətkeş, fit, elektrik cib fənəri, xidməti çantaya malik olmalıdır.

6.7. Təlimatlandırma nizami bölmə naryadlarının bölünməsi və xidmətə başlaması haqqında əmrin verilməsi ilə sona çatır.

6.8. Gündüz vaxtı şəhərdaxili post və marşrutlara 1 nəfərdən ibarət piyada, moto və ya avtopatrul naryadı təyin edilə bilər. Şəhərkənarı yollarda, stasionar postlarda və

sutkanın qaranlıq vaxtında xidmət aparılması üçün tərkibində iki nəfərdən az YPX inspektorunun olduğu naryadların təyin olunması qadağandır.

6.9. Nizami hissə komandirinin bölmədən uzaqda yerləşən postlarda xidmət aparan YPX inspektorları bölmə rəhbərliyinin icazəsi ilə təlimatlandırmaya həftənin müəyyən edilmiş günləri gələ bilərlər.

6.10. Xidmət yerinə gəlmiş YPX inspektoru xidmətə başlama haqqında növbətçiyə məruzə edir və ondan zəruri informasiya və göstərişlər alır. Şəhər və digər yaşayış məntəqələrində xidmət apardığı dövrdə YPX inspektorları növbətçini operativ vəziyyət haqqında saatda bir dəfə, şəhərkənarı yollarda isə iki saatda bir dəfədən az olmayaraq məlumatlandırır.

## 7. YPX-nin aparılması qaydası

7.1. Posta (patrul marşrutuna) çatdıqdan sonra YPX inspektoru:

1) texniki tənzimləmə vasitələrinin, xüsusi vasitələrin, rabitə vasitələrinin sazlığını, yol və küçələrin vəziyyətini, aparılan təmir-tikinti və digər işlərin həyata keçirilməsi şəraitini yoxlamalı, patrul postu, marşrutu ərazisində operativ şərait haqqında əvəz etdiyi əməkdaşdan xidmət yerində müvafiq məlumat almalıdır;

2) patrul postunun, marşrutunun, eləcə də patrul nəqliyyatının təhvil alınması və aşkarlanmış çatışmazlıqlar haqqında nizami hissənin növbətçi hissəsinə məruzə etməlidir;

3) YPX inspektoru hərəkətdə olan maneələrin aradan qaldırılması, hərəkət hissəsində nasazlıq və digər səbəblərdən saxlanmış nəqliyyat vasitələrinin kənar edilməsi, təhlükəli sahələrin işarələnməsi üçün tədbirlər görməli, hərəkət iştirakçılarına yolun vəziyyəti, hərəkətdə olan maneələr, YNH və digər qəzalar haqqında məlumat verməlidir;

4) hərəkət iştirakçıları ilə ünsiyyətdə cinayət faktlarına dair alınmış məlumatlar haqqında növbənin sonunda yuxarı vəzifəli şəxsə raportla məruzə etməli və informasiyanı təxirəsalınmadan müəyyən olunmuş qaydada daxili işlər orqanının növbətçi hissəsinə ötürməlidir.

7.2. Patrul marşrutunda (postda) xidmət aparan zaman YPX inspektoru hərəkət prossesinə nəzarət etməlidir. Bu zaman yol hərəkətinə nəzarət yol-nəqliyyat hadisələrinin baş verməsinə bilavasitə səbəb olan YHQ pozuntularının qarşısının alınması və xəbərdar edilməsinə yönəldilərək, nəqliyyat vasitələrinin səbəbsiz dayanması və hərəkətdə ləngimənin aradan qaldırılması üçün tədbirlər görülməlidir.

7.3. İki və daha artıq YPX inspektorundan ibarət naryadın rəhbəri xidmət apardığı dövrdə naryadın fəaliyyətinə rəhbərliyi həyata keçirməklə yanaşı aşağıdakı funksiyaları yerinə yetirir:

1) naryadda olan YPX inspektorunun işini təşkil etməli, yaranmış vəziyyətdən asılı olaraq, onların yerləşməsi və xidmət aparma qaydasına dəyişikliklərin edilməsi zərurəti haqqında taqım komandiri, növbətçi hissəyə məruzə etməlidir;

2) YPX inspektorlarının xidmət aparmasına nəzarəti həyata keçirməli və vəzifələrin yerinə yetirilməsi zamanı onlara əməli köməklik göstərməlidir;

3) xidməti sənədləşmənin aparılmasının keyfiyyətini, YNH və inzibati hüquq pozuntularına dair materialların keyfiyyətini yoxlamalı, aşkarlanmış çatışmazlıqların aradan qaldırılması üçün tədbirlər görməlidir;

4) əməliyyat-texniki, patrul nəqliyyatı və xüsusi vasitələrin istifadə olunması qaydalarına əməl edilməsinə nəzarət etməlidir.

7.4. Nəqliyyat vasitələrinin dayandırılması üçün əsaslar aşağıdakılardır:

1) nəqliyyat vasitəsini idarə edən şəxs tərəfindən yol hərəkəti qaydalarının və ya yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi qaydalarının pozulduğu vizual şəkildə aşkar edildikdə və ya xüsusi texniki vasitələrdən istifadə etməklə müəyyən olunduqda, habelə nəqliyyat vasitəsini idarə edən şəxs tərəfindən inzibati xətanın törədilməsi barədə radio-cihaz vasitəsilə digər DYP əməkdaşından məlumat daxil olduqda;

2) nəqliyyat vasitəsini idarə edən şəxs və ya onunla birlikdə olan sərnişin tərəfindən cinayətin törədilməsi və ya cinayətin törədilməsində şübhələnilməsi haqqında dəqiq məlumat olduqda;

3) analoji nəqliyyat vasitəsinin (rənginə, markasına və xüsusi əlamətlərinə görə) axtarışda olması;

4) nəqliyyat vasitəsinin saxlanılması barədə məhkəmə və ya müvafiq icra hakimiyyəti orqanının qərarı olduqda;

5) sürücü və ya nəqliyyat vasitəsinin digər yol hərəkəti iştirakçıları və ya polis əməkdaşlarına yardım göstərilməsi üçün cəlb edilməsi zərurəti;

6) hərəkətin xarakteri sürücünün nəqliyyat vasitəsini idarə etmək qabiliyyətində olmasına şübhə doğurduqda (nəqliyyat vasitəsinin əsaslandırılmamış aşağı sürətlə idarə edilməsi, hərəkət zolağında düzgün yerləşdirilməməsi, o cümlədən, yolun çiyninə qismən çıxmaq, əsassız tormozlama və ya sürətləndirmə və digər hallar) və bu hal digər hərəkət iştirakçılarına təhlükə yaratmasını ehtimal etməyə əsas verdikdə;

7) nəqliyyat vasitəsinin texniki vəziyyətinin normalara uyğunsuzluğu müəyyən edildikdə, banının hissələrinin zədələri olduqda və daşınan yük dağıldıqda və ya hərəkət üçün təhlükə yaratdıqda;

8) nəqliyyat vasitəsinin alın şüşəsində müvafiq texniki baxış talonu olmadıqda;

9) xüsusi tədbirlər keçirildikdə (yaxalama, reyd və digər);

10) «Yol hərəkəti haqqında» Azərbaycan Respublikası Qanununun 37-ci maddəsinin I hissəsinin 1-ci bəndində nəzərdə tutulmuş sənədlərin yoxlanılması məqsədilə yalnız stasionar YPX postlarında;

11) nəqliyyat vasitəsi və ya onun sahibi barədə mərkəzi məlumat sistemində olan məlumatların uyğunsuzluğu aşkar edildikdə.

7.5. Piyada xidmət aparan YPX inspektoru nəqliyyat vasitəsinin dayandırılması barədə tələbi fit və jezllə işarə verməklə edir. Patrul avtomobilində, motosikletində hərəkətə nəzarət zamanı nəqliyyat vasitəsinin dayandırılması tələbi xüsusi işıq və səs siqnallarından, səsgücləndiricidən istifadə etməklə yerinə yetirilir. Bu tələb nəqliyyat vasitəsini idarə edən şəxsin aydın görə və ya eşidə biləcəyi şəkildə edilməlidir. Yol hərəkətinin tənzimlənməsi zamanı xüsusi səs siqnallarından və səsgücləndiricidən əhalinin rahatlığına və sakitliyə riayət etmək şərti ilə istifadə edilə bilər.

7.6. Nəqliyyat vasitəsinin dayandırılması tələbi elə edilməlidir ki, sürücü nəqliyyat vasitəsini saxlayarkən digər hərəkət iştirakçılarına maneə yaratmasın.

7.7. Ekipajda iki YPX inspektorundan biri patrul avtomobilindən düşərək dayandırılmış nəqliyyat vasitəsinin sürücüsünə yaxınlaşır, özünü sürücüyə təqdim edir və bundan sonra dayandırılmanın səbəbini bildirməklə ondan aşağıdakı sənədlərin təqdim olunmasını tələb edir:

1) sürücülük vəsiqəsini;

2) sürücülük vəsiqəsi müəyyən edilmiş qaydada alındıqda, onu əvəz edən müvəqqəti icazə vərəqini və sürücünün şəxsiyyətini təsdiq edən sənədi;

3) fərdi nəqliyyat vasitəsinin sahibi olmadıqda, sürücünün nəqliyyat vasitəsini idarə etmək hüququna dair müəyyən edilmiş qaydada təsdiqlənmiş etibarnaməni;

4) nəqliyyat vasitəsinin qeydiyyat şəhadətnaməsini;

5) daşınan yükə dair sənədləri;

6) nəqliyyat vasitəsinin sahibinin mülki məsuliyyətinin icbari sığortası haqqında şəhadətnaməsini;

7.8. Nəqliyyat vasitəsinin dayandırılması tələbi sürücü tərəfindən yerinə yetirilmədikdə, pozuntunun vaxtı, yeri, xarakteri, nəqliyyat vasitəsinin markası, rəngi, hərəkət istiqaməti, dövlət qeydiyyat nişanı və digər mühüm əlamətləri göstərməklə YPX inspektoru qonşu patrul marşrutu və ya postda xidmət aparan YPX naryadına bu barədə radio-cihaz vasitəsi ilə məlumat verir və bundan sonra yazılı formada raport (Təlimata 14 saylı əlavə) tərtib edir.

7.9. Nəqliyyat vasitəsini idarə edən şəxs onun sərxoş vəziyyətdə olub-olmamasının müəyyən edilməsindən imtina etdikdə və onun sərxoşluq əlamətləri özünü aşkar büruzə verdikdə, belə şəxs məcburi qaydada tibbi müayinədən keçirilir. Sürücü tibbi müayinəyə aparılarkən tibbi müayinəyə göndərmə protokolu tərtib olunur (Təlimata 16 saylı əlavə).

7.10. Arzuolunmaz nəticələrin baş verməsinin qarşısının alınması üçün təxirəsalınmaz dayandırma zərurətinin olduğu hallar istisna olmaqla, nəqliyyat vasitəsinin yolun məhdud görüntülü hissələrində, döngədən əvvəl və ya sonra, bilavasitə yoxuşun sonundan əvvəl və ya sonra, yolayrıcının, piyada keçidlərinin qarşısında, dəmiryol keçidləri zonasında, tunellərdə, hərəkət istiqamətində 3-dən az hərəkət zolağı olan körpülərdə (yol ötürücülərində) və digər təhlükəli yerlərdə dayandırılması qadağandır.

7.11. Nəqliyyat vasitələrinin dayandırılması minimal müddətə və hərəkət üçün maneə yaratmayan yerlərdə həyata keçirilməlidir. Ümumi istifadədə olan nəqliyyat vasitəsinin sürücüsü yol hərəkəti qaydalarını pozduqda müntəzəm şəhərdaxili (rayondaxili) sərnişin daşımalarında ləngimələrin qarşısını almaq üçün DYP əməkdaşı dayandırılmış nəqliyyat vasitəsinin sürücüsünə yol verdiyi qayda pozuntusunu elan etdikdən və nəqliyyat vasitəsinin dövlət qeydiyyat nişanını qeydə aldıqdan sonra sürücü barəsində inzibati xəta haqqında protokolu sonuncu dayanacaqda da tərtib edə bilər. Nəqliyyat vasitələrinin səbəbsiz saxlanılması qadağandır. [13]

7.12. YPX-nın əməkdaşı tərəfindən yol hərəkətinə nəzarətin dislokasiya ilə müəyyən edilməmiş yerlərdə və iş qrafikinin və ya post cədvəlinə uyğun olmayan hallarda həyata keçirilməsi ehtimal olunduqda bu barədə növbətçiyə məruzə edilir və onun göstərişlərinə müvafiq olaraq hərəkət edilir. Növbətçi hissənin məlumatlandırılmasının mümkün olmadığı halda bu əməkdaşların şəxsiyyəti və

onların işlədikləri DİO-nun müəyyən edilməsi ilə bağlı məlumat toplayıb bu barədə xidmətin sonunda yuxarı vəzifəli şəxsə raportla məruzə edir.

7.13. Yol polisinin patrul avtomobilləri ilə müşayiət olunan, eləcə də xüsusi işıq və səs siqnalları verən mütəşəkkil nəqliyyat dəstəsi və ya ayrı-ayrı xüsusi təyinatlı avtomobillərin keçdiyi zaman YPX inspektoru onların patrul post və ya marşrutu ərazisindən təhlükəsiz, maneəsiz keçməsi üçün tədbirlər görür.

7.14. Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Milli Məclisi deputatlarının, Azərbaycan Respublikası Baş Nazirinin, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə müvəkkilinin (Ombudsmanın), Məhkəmə-Hüquq Şurasının üzvlərinin və Azərbaycan Respublikası hakimlərinin şəxsiyyəti, həmin şəxslərin xidməti və şəxsi nəqliyyat vasitələri toxunulmaz olduğuna görə onların yoxlanılmasına və ya inzibati qaydada tutulmasına yol verilə bilməz.

7.15. Nəqliyyat vasitəsinin saxlanması haqqında qərar hər bir konkret halda YPX inspektoru tərəfindən qanun pozuntusunun davam etdirilməsini istisna edən konkret şərait nəzərə alınaraq müstəqil şəkildə qəbul edilir. Nəqliyyat vasitəsinin sürücüsünün sərxoş vəziyyətdə olduğunu ehtimal etmək üçün kifayət qədər əsas olan halda nəqliyyat vasitəsi saxlanılır. Nəqliyyat vasitəsinin idarə olunmasından kənarlaşdırma sürücünün sərxoşluq vəziyyətinə dair xüsusi texniki vasitələrin göstəricilərinə və ya tibbi müayinənin nəticələrinə uyğun olaraq həyata keçirilir. Tabesizlik göstərildikdə YPX inspektoru saxlanılmış nəqliyyat vasitəsinin sonrakı hərəkətinin mümkünlüyünü istisna edən tədbirlər görür, (təkərin fırlanmasının qarşısını alan, bloklayan, texniki qurğudan və ya digər vasitələrdən istifadə etməklə), bu barədə növbətçi hissəsini məlumatlandırır, şahidlərin iştirakı ilə qüvvədə olan qanunvericiliyə müvafiq olaraq polis əməkdaşının qanuni sərəncamı və ya tələbinə qərəzli tabesizliyə görə pozuntu haqqında raport tərtib edir, ~~zəruri hallarda~~ qanun pozuntusunu törətmiş şəxsin ən yaxın daxili işlər orqanına gətirilməsi üçün tədbirlər görür.[14]

7.16. Fiziki şəxslər aşağıdakı hallarda nəqliyyat vasitəsinin idarə olunmasından kənarlaşdırılır:

1) dayandırılmış nəqliyyat vasitəsini idarə edən şəxsdə və ya onunla birlikdə gedən sərnişinlərdən hər hansı birində sürücülük vəsiqəsi, nəqliyyat vasitəsinin qeydiyyat şəhadətnaməsi, habelə həmin nəqliyyat vasitəsini idarə etmək hüququ verən digər əsas olmadıqda;

2) nəqliyyat vasitəsinin saxlanılması barədə məhkəmə və ya müvafiq icra hakimiyyəti orqanının qərarı olduqda;

3) nəqliyyat vasitəsinin dövlət qeydiyyat nişanları və ya onlardan biri olmadıqda (saxta və ya qeyri-standart olduqda) və ya nəqliyyat vasitəsini başqa nəqliyyat vasitələrinə verilmiş dövlət qeydiyyat nişanları ilə idarə etdikdə;

4) dayandırılmış nəqliyyat vasitəsinin mühərrik, ban və şassi nömrəsi onu idarə edən şəxs tərəfindən təqdim edilmiş nəqliyyat vasitəsinin qeydiyyat şəhadətnaməsindəki rəqəmlərə uyğun gəlmədikdə;

5) dayandırılmış nəqliyyat vasitəsi alkoqoldan, narkotik vasitələr və ya güclü təsir göstərən digər maddələrin istifadə edilməsi nəticəsində sərxoş vəziyyətdə olan şəxs tərəfindən idarə olunduqda və onunla birlikdə gedən sərnişinlərdən birində müvafiq kateqoriyalı sürücülük vəsiqəsi olmadıqda;

6) nəqliyyat vasitəsində normativ tələblər pozulmaqla avadanlıq quraşdırıldıqda və ya dəyişdirildikdə, nəqliyyat vasitəsinin ban şüşələrinə qanunla tətbiqinə icazə verilməyən örtüklər çəkildikdə, nəqliyyat vasitəsi müvafiq icazə olmadan xüsusi səs (çoxavazlı) və ya sayrışan işıq siqnalları ilə təchiz edildikdə, bu pozuntuları yerində aradan qaldırmaq mümkün olmadıqda.

7.17. YPX inspektoru göstərilən səbəblər aradan götürülənədək müvəqqəti olaraq mühafizə olunan duracaqlarda saxlanılması üçün nəqliyyat vasitələrini müəyyən edilmiş qaydada oraya göndərir. Nəqliyyat vasitəsinin saxlanılması iki nüsxədə olan aktla rəsmiləşdirilir, onun birinci nüsxəsi inzibati protokola əlavə edilir, surəti isə nəqliyyat vasitəsini idarə edən şəxsə verilir. («Yol hərəkəti qaydaları və yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi qaydaları əleyhinə olan inzibati xətalar haqqında işlər üzrə icraatın təşkilinə dair» Təlimata 8 saylı əlavə).

7.18. Nəqliyyat vasitəsinin saxlanma səbəbini üç saat ərzində yerində aradan qaldırmaq mümkün olduqda YPX inspektoru nəqliyyat vasitəsini yanında saxlayır. Belə səbəb aradan qaldırıldığı barədə lazımi sənədlər təqdim edildikdən, mübahisəli hallar araşdırıldıqdan və ya pozuntuya görə inzibati tənbeh tətbiq edildikdən dərhal sonra saxlanılan nəqliyyat vasitəsi sahibinə qaytarır.

7.19. Üç saat ərzində nəqliyyat vasitəsinin saxlanılması səbəbini yerində aradan qaldırmaq mümkün olmadıqda nəqliyyat vasitəsi mühafizə olunan duracağa gətirilir (göndərilir).

7.20. İnzibati xətanın törədilməsində alət və ya inzibati xətanın bilavasitə obyekti olmuş predmetlərin aşkarlanması məqsədilə YPX inspektoru Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 403-cü maddəsilə müəyyən edilmiş qaydada nəqliyyat vasitəsinə baxış, həmin Məcəllənin 402-ci maddəsinə uyğun olaraq şəxsi axtarış, fiziki şəxsin üzərində olan əşyalara baxış həyata keçirir.[15]

7.21. Baxış zamanı aşkar olunmuş, qanunazidd əməllərin törədilməsindən xəbər verən əşya və ya predmetlər, eləcə də onların sahibləri daxili işlər orqanının növbətçi hissəsinə gətirilir və həmin qanun pozuntusuna dair bütün materiallar növbətçi hissəyə təqdim olunur.

7.22. YPX inspektoru aşağıdakı hallarda hərəkət iştirakçısını nizami polis hissəsinin və ya DİO-nun növbətçi hissələrinə gətirir:

1) şəxs YPX inspektorunun qanuni sərəncamına və ya tələbinə qəsdən tabe olmadıqda;

2) inzibati xəta haqqında protokolu yerində tərtib etmək və ya YNH üzrə sənədləşməni aparmaq mümkün olmadıqda;

3) nəqliyyat vasitəsini idarə edən şəxsin şəxsiyyətini müəyyənləşdirmək məqsədilə;

4) daşınan yükün sənədləri olmadıqda

5) nəqliyyat vasitəsini idarə edən şəxsin cinayət və ya YNH törətməsində şübhə yarandıqda;

7.23. Yol hərəkəti qaydaları əleyhinə olan inzibati xəta haqqında protokol Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 410-cu maddəsində nəzərdə tutulmuş qaydada tərtib edilir və inzibati xəta törətmiş şəxsə dərhal protokolun surəti

və baxılmanın yeri və vaxtı barədə bildiriş verilir. Protokol xüsusi hazırlanmış və nömrə üzrə YPX inspektoruna ciddi hesabatla verilən blank formasında tərtib edilir. [16]

7.24. Yol hərəkəti qaydalarının pozuntusunun aşkar edilməsində xüsusi texniki vasitələrdən istifadə olunmuşdursa, protokolda onların göstəriciləri, habelə istifadə olunmuş xüsusi texniki vasitənin tipi, markası, modeli, yerləşdiyi yer, ölçmə vasitəsinin son dəfə müqayisəli dövlət yoxlamasından keçdiyi vaxt (bunu təsdiq edən sənədin nömrəsi, tarixi) və növbəti yoxlamanın keçirilməli olduğu vaxt barədə məlumatlar qeyd olunmalıdır. Yol hərəkəti qaydalarının pozulması nəticəsində şəxsin sağlamlığına yüngül zərər vurulmuşdursa və ya maddi zərər yetirilmişdirsə, bu hallar protokolda əksini tapmalıdır. [17]

7.25. Sürücü tərəfindən nəqliyyat vasitəsini idarə etmə hüququnun məhdudlaşdırılması növündə inzibati tənbehin tətbiq edilməsini nəzərdə tutan xətalar törədildikdə, inzibati xəta haqqında iş üzrə qərar çıxarılanadək onun sürücülük vəsiqəsi götürülür və həmin şəxsə nəqliyyat vasitəsini bir ay müddətində müvəqqəti idarə etmə hüququ verən, xüsusi hazırlanmış və YPX inspektoruna nömrə üzrə ciddi hesabatla verilən blank formasında tərtib edilmiş sənəd verilir, sürücülük vəsiqəsi inzibati protokola əlavə edilir. Nəqliyyat vasitəsini müvəqqəti idarə etmək hüququ verən sənədin qüvvədə olma müddəti nəqliyyat vasitəsini idarəetmə hüququnun məhdudlaşdırılması haqqında qərar qanuni qüvvəyə minənədək uzadılır.

7.26. Yol hərəkəti qaydalarını pozmuş şəxs inzibati xəta hadisəsinin mövcudluğu və tətbiq edilən inzibati cərimə tənbeh növü ilə razılaşdıqda, YPX inspektoru tərəfindən dərhal inzibati tənbeh vermə haqqında qərar qəbul edilir və inzibati xəta törətmiş şəxsə cəriməni YPX inspektorunda olan xüsusi texniki vasitədən (POS-terminal) istifadə etməklə, plastik kart vasitəsilə ödəmək imkanı verilir. Qəbul edilən qərar və təyin olunan cərimənin məbləği protokolda qeyd edilir.

7.27. Cərimə plastik kart vasitəsilə ödənildikdə iki nüsxədə qəbz çap olunur. Bir nüsxə protokola əlavə olunur, ikinci nüsxə isə protokolun surəti ilə birlikdə inzibati xəta törətmiş şəxsə verilir. İnzibati xəta törətmiş şəxsin plastik kart vasitəsilə cəriməni ödəmək imkanı olmadıqda, ona cərimənin bank, poçt və ya İnternet vasitəsilə ödənilməsi üçün bildiriş verilir və bu barədə protokolda qeyd aparılır. Cərimə bildirişi xüsusi hazırlanmış və YPX inspektoruna nömrə üzrə ciddi hesabatla verilən blank formasında tərtib edilir.

7.28. Yol hərəkəti qaydalarını pozmuş şəxs inzibati xəta hadisəsinin mövcudluğu ilə və ya tətbiq edilən inzibati tənbeh növü ilə razılaşmadıqda, inzibati xəta haqqında protokol inzibati xətalar haqqında işlər üzrə icraatın həyata keçirilməsi üçün 1 iş günü ərzində aidiyyəti üzrə müvafiq DYP orqanına göndərilir. Bu halda inzibati xəta törətmiş şəxsə dərhal və baxılmanın yeri və vaxtı barədə bildiriş verilir.

7.29. Nəqliyyat vasitəsini idarə edən şəxs yol hərəkəti qaydalarını pozmuşdursa o, qanunvericiliklə müəyyən olunmuş qaydada məsuliyyət daşıyır və YPX inspektoru ~~öz səlahiyyətləri daxilində~~ müvafiq sənədləşmə aparır. [18]

7.30. Nəqliyyat vasitəsi dayandırıldığı halda sürücünün sənədləri qaydasındadırsa və o, yol hərəkəti qaydasını pozmamışdırsa YPX inspektoru sənədləşmə aparmadan sürücüyə hərəkətini davam etməyə icazə verir.

7.31. Aşkar edilmiş yol hərəkəti qaydalarının pozuntusu faktı üzrə inzibati xəta haqqında protokol tərtib edir (qaydanı bir neçə şəxs pozmuşdursa, onlardan hər biri barədə ayrıca inzibati protokol tərtib edir). İnzibati xəta haqqında protokolda aşağıdakı məlumatlar göstərilir:

1) protokolun tərtib edildiyi tarix və yer;

2) protokolu tərtib etmiş şəxsin vəzifəsi, soyadı, adı, atasının adı;

3) barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxs haqqında məlumat;

4) inzibati xətanın törədildiyi yer, vaxt və bu xətanın mahiyyəti;

5) inzibati xətaya görə məsuliyyət nəzərdə tutan İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsi;

6) şahidlərin və zərər çəkmiş şəxslərin adı, atasının adı, soyadı və onların yaşadığı yerin ünvanı;

7) barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan fiziki şəxsin və ya hüquqi şəxsin nümayəndəsinin izahatları;

8) inzibati xətanın aşkar edilməsində xüsusi texniki vasitələrdən istifadə olunmuşdursa, onların göstəriciləri, habelə istifadə olunmuş xüsusi texniki vasitənin tipi, markası, modeli, yerləşdiyi yer, ölçmə vasitəsinin son dəfə müqayisəli dövlət yoxlamasından keçdiyi vaxt (bunu təsdiq edən sənədin nömrəsi, tarixi) və növbəti yoxlamanın keçirilməli olduğu vaxt barədə məlumatlar; [19]

9) inzibati xətanın törədilməsi nəticəsində şəxsin sağlamlığına yüngül zərər vurulmuşdursa və ya maddi zərər yetirilmişdirsə, bu hallar barədə qeydlər;

10) inzibati xəta haqqında iş üzrə icraat üçün zəruri olan başqa məlumatlar.

7.32. Vətəndaşlardan YHQ pozulması barədə alınmış məlumatlar yoxlanılaraq təsdiqini tapdığı halda YPX inspektoru tərəfindən sənədləşdirilir.

7.33. Nəqliyyat vasitəsini idarə edən şəxsin və onunla birlikdə olan sərnişinlərin cinayət törətdiyi və ya törədilməsində şübhələnilməsi haqqında dəqiq məlumat olduqda, habelə YPX inspektorunun nəqliyyat vasitəsinin dayandırılması tələbini yerinə yetirməyən sürücü öz hərəkətləri ilə insan həyatına və sağlamlığına real təhlükə yaratdıqda nəqliyyat vasitəsi təhlükəsizlik şərtlərinə əməl edilməklə onun təqib olunmasına icazə verilir. Bu halda YPX inspektoru əvvəlcə DYP orqanının vəzifəli şəxsinə radio-cihaz vasitəsi ilə məlumat verməlidir.

7.34. Nəqliyyat vasitəsinin təqib olunması zamanı YPX inspektoru tərəfindən aşağıdakı tələblər yerinə yetirilməlidir:

1) təqib olunan nəqliyyat vasitəsini daim görünüş dairəsində saxlayır;

2) təqib olunanın bütün hərəkətlərini əvvəlcədən qiymətləndirir, onun gizlənməsinə imkan vermir;

3) bacarıq və ehtiyatla manevr edir;

4) təqib olunanın yaxalanması üçün ən qısa marşrut seçir;

5) təqib olunan nəqliyyat vasitəsinin sürücü və sərnişinlərinin hərəkətlərinə diqqət yetirir (nəqliyyat vasitəsindən atılan əşya, salonda yerdəyişmə və s.);

6) növbətçi hissəni təqib marşrutu barədə daim məlumatlandırır, nəqliyyat vasitəsinin yaxalanması məqsədi ilə əlavə qüvvə ayrılması üçün müraciət edir;

7) təqib olunan nəqliyyat vasitəsinə arxadan yaxınlaşaraq, səsgücləndirici vasitəsilə nəqliyyatın yol kənarında saxlanılmasını tələb edir.

7.35. Təqib zamanı YPX inspektoru özünün və hərəkətin digər iştirakçılarının təhlükəsizliyinin təmin olunması məqsədilə aşağıda göstərilən təhlükəsizlik tədbirlərini yerinə yetirməyə borcludur:

1) təqib vaxtı xüsusi səs və sayrışan işıq siqnallarını daim işlək vəziyyətdə saxlamaqla səsgücləndirici vasitəsi ilə hərəkət iştirakçılarını öz niyyəti barədə məlumatlandırmalıdır;

2) konkret şəraitdən asılı olaraq hərəkət sürəti seçməli, manevr etməzdən əvvəl onun təhlükəsizliyinə tam əmin olmalıdır;

3) təqib olunana və hərəkətin digər iştirakçılarına qarşı diqqətli olmalıdır;

4) hərəkət iştirakçılarının təhlükəsizlik tədbirlərinə riayət etmələri barədə onları məlumatlandırmalıdır;

5) təqib təhlükəli olduqda və ya onun bir nəticə verməməsi aydın olduqda təqibi dayandırmalıdır (növbətçinin razılığı əsasında, onunla rabitə olmadıqda bu qərarı YPX inspektoru özü qəbul edir).

7.36. Təqib zamanı nəqliyyat vasitəsində olan şəxslərin silahlı olduğu halda YPX inspektoru imkan daxilində bu barədə növbətçi hissəyə məruzə edir və bundan sonra növbətçinin göstərişinə əsasən və yaranan vəziyyətə uyğun olaraq hərəkət edir.

7.37. İri qabaritli, ağır çəkili və təhlükəli yüklərin daşınması qaydalarının pozulmasının aşkarlandığı halda YPX inspektoru nizami hissənin rəhbərliyi və ya növbətçidən müvafiq göstərişlər alınanadək göstərilən nəqliyyat vasitələrinin sonrakı hərəkətini qadağan edərək, belə nəqliyyat vasitələrinin yolun hərəkət hissəsindən kənara çəkilməsi və ya imkan daxilində qərar qəbul edilənədək onların ən yaxın YPX postuna, dayanacağa qədər müşayiət olunması üçün tədbirlər görür. Təhlükəli yüklər daşıyan avtomobilləri imkan daxilində təhlükəsizlik zolağının hüdudlarından kənara çəkmək lazımdır.

7.38. Patrul postu və ya marşrutunda xidmət apararkən YPX inspektoru avtomobil yollarının şərait və vəziyyətinə, texniki tənzimləmə vasitələrinin (svetoforlar, yol nişanları və s.) saz vəziyyətdə olmasına, eləcə də yolun hərəkət hissəsində işlərin həyata keçirilməsinə nəzarət edir. Svetofor obyektlərinin, digər texniki tənzimləmə vasitələrinin işinin effektivliyinin müəyyən edilməsi məqsədi ilə nəqliyyat axınlarına vizual müşahidəni həyata keçirir və yol hərəkəti qaydalarının pozulma səbəblərini müəyyən edir, sutkanın vaxtından asılı olaraq ərazidə yol hərəkətinin təşkilinin təkmilləşdirilməsi ilə bağlı təkliflər verir.

7.39. Çatışmazlıqlar aşkarladıqda YPX inspektoru bu barədə növbətçi hissəyə məlumat verir ki, o da bunları «Yol şəraiti, texniki tənzimləmə vasitələri və yol nişanlarının vəziyyətində müəyyən edilən çatışmamazlıqların uçotu» jurnalına qeyd edir (Təlimata 12 saylı əlavə). Nasazlıqlar və hərəkət üçün maneələr aradan qaldırılana qədər zəruri olduqda hərəkətin tənzimlənməsini həyata keçirir, yol hərəkətinin təhlükəsizliyinin təmin edilməsi üçün tədbirlər görür. [20]

7.40. Aşkar edilmiş inzibati xətalarla bağlı tərtib olunmuş bütün materiallar götürülmüş sənədlərlə birlikdə xidmətin sonunda xidmət rəhbərinə və ya növbətçi hissəyə təhvil verilir.

7.41. YPX inspektoru xidmət yerini yalnız nizami hissənin komandirinin, onun müavinləri və ya növbətçi inspektorun icazəsi və ya göstərişi ilə aşağıdakı hallarda tərk edə bilər:

1) qonşu marşrutlarda hərəkətdəki maneə və təhlükələrin aradan qaldırılması ilə bağlı təxirəsalınmaz tədbirlər görülməsi zamanı;

2) bu Təlimatın 7.24 bəndinə müvafiq olaraq vətəndaşların növbətçi hissəyə gətirilməsi;

3) saxlanılmış nəqliyyat vasitələrinin duracağa gətirilməsi;

4) digər polis naryadları, digər hüquq-mühafizə orqanlarının əməkdaşları tərəfindən xidməti vəzifələrin yerinə yetirilməsi ilə bağlı təxirəsalınmaz əməliyyat tədbirlərinin həyata keçirilməsinə yardım göstərilməsi;

5) bu Təlimatın 7.26 bəndinə müvafiq olaraq nəqliyyat vasitələrinin təqib olunması;

6) yol-nəqliyyat hadisələri, bədbəxt hadisələr və digər hadisələr zamanı xəsarət alanlara yardım göstərilməsi;

7) hadisə yerinin mühafizəsi;

8) yanğın və təbii fəlakətlərin nəticələrinin aradan qaldırılması üçün tədbirlərin görülməsi;

9) gözlənilmədən xəstələnmə;

10) müəyyən olunmuş vaxtda istirahət və qida qəbulu.

7.42. Patrul nəqliyyatında xidmət aparılması zamanı aşağıdakılar qadağandır:

1) kənar şəxs və yüklərin daşınması, eləcə də patrul nəqliyyatının nəzarətsiz qoyulması;

2) müəyyən xidməti vəzifələrin yerinə yetirilməsi zərurəti istisna olmaqla, yol hərəkəti qaydalarının pozulması, o cümlədən müəyyən olunmuş hərəkət sürətinin aşılması, təyin olunmuş marşrutdan özbaşına kənarlaşma, xidmətin aparılma qaydasının dəyişdirilməsi;

3) patrul nəqliyyatının idarə olunmasının kənar şəxsə verilməsi;

4) saxlanılmış şəxslərin patrul avtomobilində nəzarətsiz qoyulması;

5) YPX inspektoru tərəfindən xidmət aparılması zamanı post və marşrutlarda, patrul avtomobilində vətəndaşlarda ikrah hissi yaradan hərəkətlərə yol verilməsi;

6) müəyyən edilmiş iş qrafikindən və ya post cədvəlindən kənara çıxmaq.

7.43. Xidməti vəzifələrinin yerinə yetirilməsi ilə bağlı yol hərəkəti qaydalarının pozulması vəziyyəti yarandığı halda YPX inspektoru bu barədə digər hərəkət iştirakçılarını məlumatlandırmaqla qırmızı və ya göy sayrışan işıq siqnallarından istifadə etməlidir.

7.44. YPX nizami polis hissələrinin komandirləri, YPX baş inspektoru, YPX inspektoru, habelə yol hərəkətinə nəzarət işinə cəlb edilən DYP bölümlərinin orta rəis heyətinin aşağıdakı hüquqları vardır:

- nəqliyyat vasitələrini saxlamaq, sürücünün sənədlərini yoxlamaq;

- yol hərəkəti haqqında qanunvericiliyin tələblərini pozmuş şəxslərdən belə hərəkətlərə son qoyulmasını tələb etmək;

- nəqliyyat vasitələrini yol hərəkətində iştirakdan kənarlaşdırmaq və ya istismarını qadağan etmək (mühafizə olunan duracağa göndərmək);

- yol hərəkəti haqqında qanunvericiliyin tələblərini pozmuş şəxslərə səlahiyyəti daxilində xəbərdarlıq və inzibati cəza tədbirləri tətbiq etmək;

- inzibati protokol tərtib etmək;

~~- yol hərəkəti haqqında qanunvericiliyin tələblərini pozmuş şəxsləri 3 saatdan artıq olmayan müddət ərzində saxlamaq;~~ [21]

- yol hərəkəti haqqında qanunvericiliyin tələblərinin pozulması hallarının aşkar olunması məqsədilə texniki-nəzarət və ölçü cihazlarını tətbiq etmək;

- saxtalaşdırılma əlamətləri olan sənədləri almaq;

- yol hərəkəti haqqında qanunvericiliyin pozulması hallarının araşdırılması üçün ~~zəruri hallarda~~ pozuntuya yol vermiş şəxsləri və şahidləri yol polisi orqanlarına dəvət etmək və onlardan izahatlar almaq;

- sərxoş halda olan sürücülərin müayinəsini keçirmək, həmçinin tibbi müayinəsini təşkil etmək;

- nəqliyyat vasitələrinin məcburi saxlanılması üçün xüsusi vasitələri tətbiq etmək;

~~- diplomatik immunitetə malik əcnəbilərə məxsus nəqliyyat vasitələri istisna olmaqla nəqliyyat vasitələrindən YNH yerinə getmək məqsədilə istifadə etmək;~~

- yollarda təmir, təmir-tikinti və digər işlərin görülməsini məhdudlaşdırmaq və ya qadağan etmək;

- nəqliyyat vasitələrinin hərəkət istiqamətini dəyişdirmək;

- nəqliyyat vasitələrini müşayiət etmək;

- nəqliyyat vasitələrini təqib etmək;

- şəxsi mühafizə vasitələrindən istifadə etmək;

- cinayət və ya digər hüquq pozuntusu törətmiş və ya törətməkdə şübhəli şəxsi tutmaq;

- tabel silahını saxlamaq, gəzdirmək və tətbiq etmək.

7.45. YPX inspektoru patrul marşrutu və ya postu ərazisində ictimai təhlükəsizliyin təmin edilməsinə və cinayət əməllərinin qarşısının alınmasına yönəlmiş tədbirləri də həyata keçirir. Bu məqsədlə o,:

1) şəxslər tərəfindən ictimai təhlükəsizliyin pozulmasına yönəlmiş hərəkətlərin qarşısını alır;

2) törədilmiş cinayətin izlərini aşkar etdikdə onların mühafizəsini təşkil edir;

3) yollarda nalayiq hərəkətlərə yol verən, sərxoş halda uzanıb qalan və ictimai qaydaları pozan şəxslərin aşkar olunub onların bu hərəkətlərinə son qoyulması üzrə tədbir görür;

4) kanalizasiya, su və qaz kəmərlərində, elektrik xətlərində nasazlıq aşkar etdikdə dərhal növbətçi hissəyə məlumat verir və mümkün olduqda müvafiq qəza-xilasetmə xidmətlərinə məlumat verilməsi üçün tədbirlər görür.

7.46. İnzibati Xətalar Məcəlləsinin 158-1.1-ci və ya 158-1.2-ci maddələrində nəzərdə tutulmuş inzibati xətanı törətmiş şəxs nəqliyyat vasitəsində olmadığı və nəqliyyat vasitəsinin mühafizə olunan duracağa aparılması mümkün olmadığı hallarda da inzibati xəta törətmiş şəxsin iştirakı olmadan inzibati xəta haqqında protokol tərtib edilir.

7.46-1. Bu halda inzibati xəta haqqında protokol Mərkəzi İnformasiya Sisteminin məlumatı əsasında müəyyən edilmiş nəqliyyat vasitəsinin istifadəçisi barədə foto və ya

video çəkiliş aparılmaqla tərtib edilir. İnzibati xəta hadisəsinin baş verməsini və hansı nəqliyyat vasitəsinin sürücüsü tərəfindən törədilməsini sübut edən foto və ya video materiallar bort-kompüter vasitəsilə dərhal elektron formada Mərkəzi İnformasiya Sisteminin mərkəzi serverinə ötürülür.

7.46-2. Mərkəzi serverdə məlumatlar xüsusi hazırlanmış proqram üzrə emal olunaraq, Mərkəzi İnformasiya Sisteminin məlumatları əsasında həmin anda elektron sənəd formasında inzibati xətalar haqqında protokol tərtib edilir və müvafiq xidmət rəisinin və ya onu əvəz edən vəzifəli şəxsin elektron imzası ilə təsdiqlənməklə müəyyən edilmiş seriya ilə avtomatik olaraq nömrələnir. İnzibati xəta hadisəsinin baş verməsini və hansı nəqliyyat vasitəsinin sürücüsü tərəfindən törədilməsini sübut edən foto və ya video materiallar əlavə olunmaqla həmin protokolun bir surəti nəqliyyat vasitəsinin ön şüşəsinə qoyulur, bir surəti isə barəsində inzibati xəta haqqında protokol tərtib edilmiş şəxsə xətanın törədildiyi vaxtdan 2 gün müddətində DİN-nin 12.01.2012-ci il tarixli Q1-001-12 nömrəli qərarı ilə təsdiq edilmiş «Yol hərəkəti qaydaları və yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi qaydaları əleyhinə olan inzibati xətalar haqqında işlər üzrə icraatın təşkilinə dair» Təlimatın 3-1.8-3-1.10-cu bəndlərində nəzərdə tutulmuş rəsmi qaydada verilir.[22]

## 8. Yol-nəqliyyat hadisələri zamanı yol polisi əməkdaşının hərəkətləri

8.1. YPX inspektoru ona məlum olmuş, patrul postundan və ya marşrutundan kənarda baş verənlər də daxil olmaqla, YNH barədə nizami hissənin və ya daxili işlər orqanının növbətçi hissəsinə məlumat verməli və aldığı göstərişlərə müvafiq olaraq hərəkət etməlidir.

8.2. Hadisə barədə məlumatın bilavasitə hərəkət iştirakçısından aldığı zaman YPX inspektoru onu diqqətlə dinləməli və aşağıdakıları qeyd etməlidir:

1) hadisə haqqında məlumat vermiş şəxsin soyadı, adı, atasının adı, ünvanı və telefon nömrəsi, hadisənin şahidləri barədə məlumatları;

2) hadisənin yeri, vaxtı, növü və hallarını;

3) xəsarət alanlar haqqında məlumatları;

4) xəsarət alanlara tibbi yardımın göstərilməsi haqqında məlumatı;

5) xəsarət alanların hansı müalicə müəssisələrinə və kim tərəfindən göndərilməsini;

6) xəsarət alanların göndərildiyi nəqliyyat vasitələrinin tipi, markası, rəngi və dövlət qeydiyyat nişanı haqqında məlumatları;

7) hadisəyə aidiyyəti olan nəqliyyat vasitələri xəsarət almayan sürücülər, sərnişinlər, piyadalar və yol hərəkətinin digər iştirakçıları haqqında məlumatları.

8.3. İnsanların xəsarət alması və ya həlak olması ilə nəticələnən YNH yerinə çatdıqda YPX inspektoru əməliyyat-istintaq qrupu gələnədək:

1) xəsarət alanların sayını müəyyənləşdirir, onların vəziyyətinin ağırlıq dərəcəsini qiymətləndirir, təcili tibbi yardım çağırır, o gələnədək və ya çağırmaq imkanının olmadığı halda xəsarət alana şəxsən ilk tibbi yardım göstərir və zəruri olduqda onların tibb müəssisələrinə çatdırılmasını təşkil edir, xəsarət alanların soyadı, adı, atasının adı, yaşayış yeri (iş yeri) barədə məlumatları toplayır;

2) nəqliyyat vasitələri, hadisədə iştirak etmiş sürücüləri və hadisəyə aidiyyəti olan digər şəxsləri müəyyənləşdirir, müəyyən olunmuş qaydada hadisə iştirakçılarının sürücülük sənədlərini yoxlayır;

3) əməliyyat-istintaq qrupu gələnədək göstərilən şəxslərin hadisə yerində qalmasını təmin edir;

4) hadisənin şahidlərini müəyyən edir və onların hadisə barədə məlumatlarını qeyd edir;

5) hadisəyə aidiyyəti olan maddi sübutların, izlərin, əmlak və digər əşyaların tamlığı və qeydə alınması üçün tədbirlər görür;

6) hadisə yerinə gəlmiş əməliyyat-istintaq qrupunun rəhbərinə (prokurora, müstəntiqə, dindirməni həyata keçirən əməkdaşa) hadisəyə aidiyyəti olan şəxslər və şahidlər haqqında məlumatı məruzə edir, maddi sübutları ona təqdim edir və sonradan onun göstərişi ilə hərəkət edir;

7) ~~zəruri hallarda~~ nəqliyyatın dolayı yolla hərəkətini təşkil edir, bunun mümkün olmadığı halda isə hadisə iştirakçıları və iki hal şahidinin iştirakı ilə nəqliyyat vasitələrinin yeri, hadisənin izlərini və aidiyyəti olan digər əşyaları qeydə alıb, bundan sonra hərəkətin bərpa olunması üçün tədbirlər görür;

8) yol nəqliyyat hadisələrinin iştirakçısı olan sürücü nəqliyyat vasitəsilə hadisə yerindən qaçmışsa, onun ehtimal olunan hərəkət istiqamətini, nəqliyyat vasitəsinin markası, tipi, dövlət qeydiyyat nişanı, rəngi, eləcə də nəqliyyat vasitəsi və sürücünün xüsusi əlamətləri barədə məlumatları toplayır. YPX inspektoru hadisə yerinə baxış və şahidlərin verdiyi məlumatlar, hadisə yerindən qaçmış sürücü və nəqliyyat vasitəsi haqqında toplanmış məlumatları dərhal nizami hissənin və ya daxili işlər orqanının növbətçisinə məruzə edir və bundan sonra onun göstərişlərinə müvafiq olaraq hərəkət edir;

9) içərisində diplomatik immunitetlər və imtiyazlardan yararlanan şəxslərin olduğu nəqliyyat vasitəsinin iştirak etdiyi YNH ilə bağlı materialların rəsmiləşdirilməsi zamanı (tibbi yardıma ehtiyacları olmadıqda) YPX inspektoru sürücüyə həmin hadisə ilə bağlı materialların tərtib olunmasında iştirak etməyi təklif edir. Diplomatik immunitetə malik şəxs materialların tərtib olunması zamanı iştirak etmək istəmədiyini bildirərsə, YPX inspektoru hadisə iştirakçıları haqqında zəruri məlumatları qeyd edir və onların getməsinə icazə verir. Belə hallarda hadisə yerinə baxış protokolunda sürücünün iştirak etməməsinin səbəbi haqqında qeyd aparılır və protokolu tərtib edən və iki hal şahidi tərəfindən imzalanır.

8.4. Ağır nəticəli YNH baş verdikdə və yaxud təxirəsalınmaz hallarda növbətçi hissəyə dərhal məlumat vermək imkanı olmadıqda, YPX inspektoru hadisə yerinə gedir, zərərçəkənlərə tibbi yardım göstərilməsi üçün yubanmadan tədbirlər görür, digər DYP əməkdaşından, yaxud şəxslərdən növbətçi hissəyə məlumat verilməsini xahiş edir.

8.5. Yol hərəkəti qaydalarının pozulması nəticəsində nəqliyyat vasitələri, yüklər, yollar, yol qurğuları və digər əmlakın zədələnməsinə səbəb olmuş və yalnız maddi ziyanla nəticələnən hallarda hadisənin rəsmiləşdirilməsi növbətçinin göstərişi ilə və ya YPX inspektoru tərəfindən müstəqil şəkildə daxili işlər orqanlarında müəyyən olunmuş

inzibati xətalara dair işlər üzrə icraat qaydası və yol hərəkəti sahəsində qüvvədə olan digər normativ-hüquqi aktlara müvafiq olaraq həyata keçirilir.

8.6. YPX inspektoru ilk növbədə hadisə yerinə baxış keçirir və bundan sonra sürücülərdən məlumatlar toplayır. İzahatlar alınanda hadisə vaxtı nəqliyyat vasitəsinin yeri və vəziyyəti, hərəkət sürəti, görünüşü, hadisəni törədənlərin hadisəyə qədər və hadisə zamanı hərəkətləri və sair suallar dəqiqləşdirilir.

8.7. Hadisə yerinə baxış keçiriləndən və hadisəni törətmiş şəxslər, habelə şahidlər dinlənəndən sonra aşağıdakı sənədlər tərtib olunur:

1) inzibati xəta haqqında protokol;

2) YNH yerinin sxemi;

3) hadisə iştirakçılarının və şahidlərin izahatları;

4) yol-nəqliyyat hadisəsinin uçot qaydaları ilə müəyyən edilmiş qeydiyyat vərəqəsi;

5) hadisə yerindən sürücünün nəqliyyat vasitəsi ilə birgə yayındığı halda onun axtarışı üçün keçirilmiş ilkin tədbirlər barədə sənədlər və raport.

8.8. Sürücünün hadisə yerindən yayınmış nəqliyyat vasitəsi tapıldıqda DYP əməkdaşı ona baxış keçirir, nəqliyyat vasitəsinin texniki vəziyyəti yoxlanılmaqla nəticəsi ilə bağlı protokol tərtib edilir.

## 9. Nəqliyyat vasitələrinin və yol hərəkəti iştirakçılarının axtarışı işi

9.1. YPX inspektoru qaçırılmış, oğurlanmış nəqliyyat vasitələrinin, YNH yerindən qaçıb gizlənmiş yol hərəkəti iştirakçılarının axtarılması ilə bağlı tədbirlər görür.

9.2. Patrul post və marşrutlarında xidmət aparan zaman YPX inspektoru markasına, rənginə və xarakterik əlamətlərinə görə axtarışda olanlara bənzəyən nəqliyyat vasitələrini saxlayır, tipini, modelini, dövlət qeydiyyat nişanını, eyniləşdirmə nömrəsini, şassi (rama), ban və mühərrikin nömrəsini nəqliyyat vasitəsinin qeydiyyat şəhadətnaməsində yazılanlarla tutuşdurur və ya mərkəzi məlumat bazasına qoşulmuş kompüter vasitəsilə yoxlayır.

9.3. Axtarılan nəqliyyat vasitəsi tapıldığı halda YPX inspektoru dərhal bu barədə nizami hissə və ya daxili işlər orqanının növbətçi hissəsinə məruzə edir, nəqliyyat vasitəsinin və onun içində olan şəxslərin saxlanması üçün tədbirlər görür. Bu zaman şəxsi təhlükəsizliyin, yol hərəkəti iştirakçılarının təhlükəsizliyinə riayət olunması üçün bütün zəruri tədbirlər, eləcə də izlər, cinayət alətləri, digər maddi sübutların tamlığının qorunması üçün tədbirlər görülür.

9.4. YPX inspektoru axtarışda olan nəqliyyat vasitəsini aşkar etdiyi halda baxış haqqında protokol (Təlimata 17 saylı əlavə) tərtib edir.

9.5. Axtarılan nəqliyyat vasitələrinin və cinayət əməlləri törətmiş şəxslərin saxlanması, eləcə də təqdim olunmuş sənədlərin, dövlət qeydiyyat nişanlarının saxtalaşdırılması, nəqliyyat vasitələrinə istehsalçı zavodlar tərəfindən vurulmuş markanın dəyişdirildiyi, məhv edildiyi, aqreqatların nömrələrinin qeydiyyat sənədlərinə, uçot məlumatlarına müvafiq olmadığının aşkarlanması, itirilmişlər (oğurlanmışlar) arasında olan sənədlərin aşkar olunması zamanı materialların rəsmiləşdirilməsi cinayət-prosessual qanunvericiliyin normalarına müvafiq olaraq

həyata keçirilir. Toplanmış ilkin məlumatlar, nəqliyyat vasitələri pozuntunun aşkarlandığı (törədildiyi) yer üzrə daxili işlər orqanına təhvil verilir.

9.6. Təlimat zamanı axtarışda olan nəqliyyat vasitəsi və şəxs barədə məlumat alan YPX inspektoru bu barədə xidməti kitabçasında (Təlimata 5 saylı əlavə) qeyd edir, xidmət zamanı nəqliyyat vasitələri arasında onları axtarır.

9.7. «Yaxalama» planı və digər axtarış tədbirlərinin keçirilməsi barədə əmr aldıqda bu plana uyğun yerini tutur və hərəkəti haqqında növbətçi hissəyə məruzə edir.

9.8. Axtarışı elan edilmiş və yaxud cinayət törətməkdə şübhəli bilinən şəxsi yaxalamaq mümkün olmadıqda YPX inspektoru dərhal növbətçi hissəyə onun hərəkət istiqaməti və ehtimal olunan gizlənə biləcəyi yer barədə məlumat verir.

9.9. «Yaxalama» təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri planının və ya daxili işlər orqanlarının digər əməliyyat planlarının həyata keçirilməsi zamanı DYP əməkdaşları sipər postlarına cəlb olunur və əlamətlərinə görə axtarılanlara bənzəyən nəqliyyat vasitələrinin yoxlanmasını həyata keçirir.

**10. Stasionar YPX postunda xidmətin aparılması**

10.1. Stasionar YPX postlarında xidmət aparan YPX inspektorlarının üzərinə aşağıdakı vəzifələr qoyulur:

1) yol hərəkətinə nəzarət, inzibati xətaların qarşısının alınması və önlənməsi, sərəncamverici-tənzimləyici fəaliyyətin həyata keçirilməsi;

2) şəxslər tərəfindən yol verilən qanunazidd hərəkətləri aşkar etmək məqsədilə nəqliyyat vasitələri, yüklər, qeydiyyat və sürücülük sənədləri, müşayiətedici nəqliyyat sənədlərinin yoxlanması;

3) təhqiqat, istintaq və məhkəmə orqanlarından gizlənən, cəzasının çəkilməsindən yayınan şəxslərin axtarışı və saxlanması;

4) qeyri-qanuni silah, döyüş sursatı, partlayıcı maddələr, narkotiklər və narkotik tərkibli maddələri daşıyan, eləcə də digər cinayətlərin törədilməsində şübhəli bilinən şəxslərin aşkarlanması;

5) hərəkət iştirakçılarının yolların vəziyyəti, yol şəraiti, gecə vaxtı yolun hərəkət hissəsində saxlanmış nəqliyyat vasitələri ilə bağlı sorğu olunması;

6) vətəndaşların həyat və sağlamlığı üçün təhlükə yaradan təbii fəlakətlər və hava şəraitinin pisləşməsi zamanı, habelə gecə vaxtı dayanmaq üçün nəqliyyat vasitələrinin sürücülərinə yardım göstərilməsi;

7) şəxslərin, nəqliyyat vasitələrinin, qeydiyyat və sürücülük sənədlərinin, o cümlədən qaçırılmış və oğurlanmış nəqliyyat, yol polisinin itirilmiş və oğurlanmış xüsusi məhsullarının (sürücülük vəsiqəsi blankları, nəqliyyat vasitələrinin qeydiyyat şahadətnamələri, dövlət qeydiyyat nişanları və tanınma nişanları), axtarılan şəxslər üzrə məlumat bazasına əsasən yoxlanması, nəqliyyat vasitələrinə baxış keçirilməsi, əməliyyat-profilaktik tədbirlərin keçirilməsi zamanı daxili işlər orqanlarının əməkdaşlarına yardım göstərilməsi;

8) yolların vəziyyəti, buraxıcılıq qabiliyyəti, hava şəraiti, nəqliyyat vasitələrinin dayanması və saxlanmış nəqliyyat vasitələri haqqında zəruri informasiyanın toplanması və gündəlik olaraq onun növbətçi hissəyə ötürülməsi.[23]

10.2. Stasionar postlarda xidmət aparan YPX inspektorları aşağıdakılara xüsusi diqqət yetirməlidirlər:

1) yol-nəqliyyat hadisəsində iştirakı olan nəqliyyat vasitələrinin axtarışı;

2) axtarışda olan nəqliyyat vasitələri və şəxslərin, eləcə də cinayət məqsədi ilə istifadə olunan nəqliyyat vasitələrinin aşkar olunması;

3) yol hərəkəti təhlükəsizliyinə təhlükə yaradan nasazlıqları olan avtomobillərin müəyyən olunması.

10.3. Nəqliyyat vasitələri və vətəndaşların axtarışda olmasının yoxlanması mərkəzi məlumat bazasına qoşulmuş kompüterdən istifadə etməklə həyata keçirilir.

10.4. Xüsusi ilə günün qaranlıq vaxtı sərnişin daşımalarını həyata keçirən avtobus və digər nəqliyyat vasitələrinin sükan arxasında yorulmaq və yuxulamaq ehtimalı olan sürücülərinin qısa müddətə daimi postda dayanaraq nəqliyyat vasitəsini idarə etmək qabiliyyətində olması üçün YPX inspektoru tərəfindən köməklik göstərilir.

10.5. Stasionar post və hər iki istiqamətdə avtomobil yolu müəyyən məsafədə işıqlandırılır və qorunan müvəqqəti duracaqla təmin edilir.

## 11. Yol hərəkəti iştirakçıları ilə qarşılıqlı münasibət

11.1. YPX inspektorunun yol hərəkəti iştirakçıları ilə qarşılıqlı münasibəti qanunçuluğa ciddi riayət olunması, öz vəzifələrinin dəqiq icra olunması, qanun pozuntularının qarşısının alınması və aradan qaldırılmasında möhkəmlik, qətiyyət və prinsipiallığın vətəndaşlara qarşı diqqətli, hörmətli və xeyirxah münasibətlə uyğunlaşmasına əsaslanmalıdır.

11.2. Yol hərəkəti iştirakçılarına müraciət edərkən YPX inspektoru sağ əlini baş geyiminə yaxınlaşdıraraq, hərbi təzim qaydasında salam verib öz vəzifəsini, xüsusi rütbəsi və soyadını deməklə, özünü təqdim etməli, nəqliyyat vasitəsinin saxlanması səbəbini bildirməlidir. Vətəndaşların müraciət etdiyi halda, əməkdaş eyni tələbləri yerinə yetirərək ~~, öz səlahiyyətləri çərçivəsində~~ yardım göstərməli, ~~zəruri hallarda isə~~ qoyulmuş məsələnin həlli üçün hara müraciət etməyin lazım gəldiyini izah etməlidir. [24]

11.3. Vətəndaşlarla söhbət zamanı yol polisi əməkdaşları sakitlik və təmkin nümayiş etdirməli, mübahisələrə girməməli, soyuqqanlılığını itirməməli, kobudluğa kobudluqla cavab verməməlidir.

11.4. YPX inspektorunun hərəkətləri yol hərəkəti iştirakçılarına aydın olmalı, sürücülərə siqnallar isə onların məcburən digər nəqliyyat vasitələrinin hərəkətinə maneələr yaratmasına yol verməmək üçün (qəflətən əyləcin basılması, manevr etmək zərurəti) vaxtında verilməlidir.

11.5. YPX inspektoru nəqliyyat vasitəsini saxladıqda yubanmadan sürücüyə yaxınlaşmalı və saxlama səbəbini izah etməli və bundan sonra saxlama səbəblərindən, yol hərəkəti iştirakçılarının vəziyyəti və davranışından asılı olaraq hərəkət etməlidir.

11.6. YPX inspektoru aşağıdakı hallarda sürücüyə nəqliyyat vasitəsinin kabinəsindən (salonundan) çıxmağı təklif edə bilər:

1) nəqliyyat vasitəsinin texniki nasazlığının və ya yükün daşınması qaydalarının pozulması hallarının aradan qaldırılması üçün;

2) sürücünün sərxoş vəziyyətdə olduğunu ehtimal etmək üçün kifayət qədər əsasın olduğu halda;

3) nəqliyyat vasitəsinin aqreqat və detallarının nömrələrinin qeydiyyat sənədlərindəki qeydlərlə sürücünün iştirakı ilə tutuşdurulması üçün;

4) nəqliyyat vasitəsi və yükə baxış keçirilməsi üçün;

5) sürücü və ya sərnişinlərin cinayət törətməsində şübhəli bilindiyi halda;

6) sürücülərin zəruri sənədlərin rəsmiləşdirilməsi və ya digər yol hərəkəti iştirakçılarına yardım göstərilməsində köməyinin tələb edildiyi digər hallarda.

11.7. Nəqliyyat vasitəsinin sürücüsü onu qaçırmaqda və ya YNH törətməkdə, habelə sərxoş vəziyyətdə olduqda və ya sürücü və sərnişinlərin cinayət törədilməsində şübhəli bilindiyi digər hallarda nəqliyyat vasitəsinin saxlanmasının əsl səbəbini bildirməməlidir. Bu zaman YPX inspektoru öz niyyətinin həqiqi xarakterini büruzə vermədən sürücü ilə danışmaq üçün bəhanə tapmalıdır.

11.8. Sərəncamlar qısa və aydın verilməli, onların ünvanlandığı vətəndaşlar tərəfindən yanlış və ya ikimənalı başa düşülməsinin mümkünlüyü istisna olmalıdır.

11.9. Yol hərəkəti qaydalarını pozan şəxsə onun hərəkətlərinin qeyri-qanuni olmasını öyüd-nəsihətsiz, xeyirxahlıqla, inandırıcı şəkildə və aydın, Azərbaycan Respublikasının «Yol hərəkəti haqqında» Qanununun müvafiq tələblərinə və yol hərəkəti sahəsində qüvvədə olan digər normativ-hüquqi aktlara istinad etməklə izah edilməlidir.

11.10. Yanında uşaqlar olan şəxslərə iradları elə bildirmək lazımdır ki, uşaqlar bunu eşitməsin. DYP əməkdaşı yeniyetmələrlə də böyüklərlə olduğu kimi nəzakətlə davranmalıdır. Uşaqlara iradlar onların yaşı və inkişaf səviyyəsini nəzərə almaqla tutulmalıdır.

11.11. Yoxlama zamanı sənədlərlə səliqəli davranmaq, onlarda hər hansı bir qeydlər etmək qadağandır. Sənədlərin arasına pul və qiymətli kağızlar qoyulubsa, sənəd sahibinə onları özünün götürməsini təklif etmək lazımdır. Tərtib olunmuş materiallara əlavə olunan sənədlər cildsiz qəbul edilir.

11.12. Azərbaycan Respublikasının «Yol hərəkəti haqqında» Qanununun tələblərinin pozulmasına görə inzibati məsuliyyətə cəlb edərkən YPX inspektoru qaydanı pozan şəxsə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 371-ci maddəsi ilə nəzərdə tutulmuş hüquqlarını izah etməlidirlər:

1) işin materialları ilə tanış olmaq, izahatlar vermək, sübutlar təqdim etmək, vəsatət və etirazlar vermək;

2) işə baxılarkən müdafiəçinin hüquqi yardımından istifadə etmək;

3) inzibati xətalar haqqında işlər üzrə icraatın təmin edilməsi tədbirlərinin tətbiqindən və iş üzrə qərardan şikayət vermək;

4) ana dilində çıxış etmək və icraatın aparıldığı dildə danışa bilmirsə tərcüməçinin xidmətlərindən istifadə etmək;

11.13. Münaqişəli vəziyyətlər, iddiaların yarandığı halda və ya yol hərəkəti iştirakçılarının tələbi ilə əməkdaş döş nişanının nömrəsini bildirir və əlindən verməmək şərti ilə xidməti vəsiqəsini təqdim edir, hüquqlarını və hərəkətlərindən şikayət edilməsi qaydasını izah edir, vətəndaşa yazılı formada öz narazılığını bildirməyi təklif edir.

Bütün bunlar barədə inzibati hüquq pozuntuları haqqında protokolda qeyd aparılır və əlavə tərtib edilmiş materiallar əsas materiala (protokola) əlavə olunur.

11.14. Protokol onu tərtib etmiş şəxs, barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan fiziki şəxs və ya hüquqi şəxsin nümayəndəsi tərəfindən imzalanır. Barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan fiziki şəxs və ya hüquqi şəxsin nümayəndəsi protokolu imzalamaqdan imtina etdikdə, bu barədə protokolda müvafiq qeyd aparılır. Barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan fiziki şəxsin və ya hüquqi şəxsin nümayəndəsinin izahatlar və protokolun məzmunu barəsində öz mülahizələrini təqdim etmək, habelə protokolu imzalamaqdan imtina etməsinin səbəblərini göstərmək hüquqları vardır. Onların bu izahatları və mülahizələri protokola əlavə olunur.

11.15. Barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan fiziki şəxsin və ya hüquqi şəxsin nümayəndəsinin, habelə zərər çəkmiş şəxsin:

1). inzibati xəta haqqında protokolun surətini;

2). inzibati xəta hadisəsinin baş verdiyi yer videomüşahidə vasitələrinin (videokameraların) nəzarəti altındadırsa, hadisənin görüntülərinin elektron daşıyıcıda surətini;

3) YHQ əleyhinə törədilən inzibati xəta xüsusi texniki vasitələrin köməyi ilə aşkar edildikdə, nəqliyyat vasitəsinin dövlət qeydiyyat nişanının nömrəsi, inzibati xəta sürət həddinin aşılması ilə əlaqədar olduqda sürətölçən cihazın göstəricisi, inzibati xətanın törədilmə yeri və tarixi barədə məlumatlar göstərilməklə, inzibati xətanın törədildiyi anın fotoşəklini almaq hüququ vardır.

11.16. İnzibati xəta haqqında protokol tərtib olunarkən inzibati materialın baxılması yeri haqqında qaydanı pozan şəxsin vəsatəti nəzərə alınmaqla protokolda və müvəqqəti icazə vərəqində onun baxılma yeri göstərilməlidir. Belə materiallar qanunvericiliklə müəyyən olunmuş qaydada və müddətdə baxılması üçün protokolda qeyd olunan ərazi polis orqanlarına göndərilməlidir.

11.17. Qanun pozuntusunun sənədləşdirilməsi zamanı hərəkət iştirakçısı YPX inspektorunun qanuni tələbini icra etməkdən imtina etdikdə, habelə əsassız iddialar və tələblər irəli sürməklə konfliktli vəziyyət yaratdıqda rəhbər vəzifəli əməkdaşın hadisə yerinə dəvət olunması məqsədi ilə YPX inspektoru növbətçi hissəyə məlumat verir.

11.18. Tərtib edilmiş protokola əlavə olunmuş sürücülük vəsiqəsinin əvəzinə sürücüyə bir ay müddətinə müvəqqəti icazə vərəqi verilir. Sürücü müvəqqəti icazə vərəqini götürməkdən və protokol ilə tanış olmaqdan imtina etdikdə iki hal şahidinin iştirakı ilə protokolda müvafiq qeydlər edilməlidir. Bu halda YPX inspektoru sürücünün avtomobili idarə edərək getməsinə icazə verməməli, sürücülük vəsiqəsi əvəzinə müvəqqəti icazə vərəqini mütləq qaydada götürülməsinin vacibliyini izah etməli, əks halda nəqliyyat vasitəsinin yol hərəkətindən kənarlaşdırılması barədə sürücüyə məlumat verməlidir.

Qeyd: sürücülük vəsiqəsinin, o cümlədən təqdim olunan müvəqqəti icazə vərəqinin etibarlılıq müddəti 1 aydan tez bitdiyi halda müvəqqəti icazə vərəqi həmin müddətə verilir.

11.19. Yol hərəkəti qaydalarının pozuntularının qarşısının alınması zamanı YPX inspektorları vətəndaşların təhlükəsizliyinin təmin edilməsi, onların qanuni hüquq və

azadlıqlarının müdafiəsi ilə bağlı üzərinə qoyulmuş vəzifələrdən, yol verilmiş qanun pozuntusunun ciddiliyi və mümkün nəticələrindən çıxış etməlidirlər.

11.20. Zəruri olduğu hallarda YPX inspektoru vətəndaşlara aşağıdakılarla bağlı yardım göstərməlidir:

1) yol-nəqliyyat hadisəsində xəsarət alanlara ilk tibbi yardımın göstərilməsi və ya onların müalicə müəssisələrinə çatdırılması;

2) şəxslərin həyat və sağlamlığına təhlükə yaradan qəsdlərdən müdafiə, eləcə də onların mülkiyyətinin mühafizəsi;

3) xidmət aparılan ərazidə davranış və avtomobillə hərəkət xüsusiyyətlərinin izah olunması;

4) nəqliyyat vasitələrinin texniki nasazlıqlarının mümkün qədər aradan qaldırılması və zədələnmiş nəqliyyat vasitələrinin daşınması.

11.21. YPX inspektorlarının hərəkət iştirakçılarından hər hansı bir qiymətli əşya və ya hədiyyə qəbul etməsi qadağandır.

